RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 109 (10129) 24 iyun 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Qarabağ və Şərqi Zəngəzurdakı möhtəşəm quruculuq ali qonaqları heyran edir

### Dövlət səfəri çərçivəsində Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov işğaldan azad edilmiş ərazilərdə olub

Azərbaycanda dövlət səfərində olan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov iyunun 23-də Füzuli rayonuna gəlib.

Həmin gün hər iki ölkənin rəhbəri Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar.

Azərbaycan Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdirib, Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olub, Şuşa məscidində tikinti işlərinin gedişi Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış olublar.

İlham Əliyev və Sərdar Berdiməhəmmədov həmçinin Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə güllələnmiş büstlərinə baxıb, Şuşada Bülbülün ev-muzeyində, Şuşada Cıdır düzündə olublar.

Hər iki dövlət başçısı iyunun 23-də Şuşada birgə nahar ediblər.

İyunun 23-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri başa çatıb.

2-3

## Müasir Azərbaycan tarixinin daha bir əlamətdar səhifəsi

### Milli Məclisin 24 iyun 1993-cü il tarixli qərarı ilə Azərbaycan Prezidentinin səlahiyyəti Heydər Əliyevə keçmişdir

Vətənin taleyini öz taleyi kimi qəbul edən Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gələrək xilaskarlıq missiyasını öz üzərinə götürdü. Vətəndaş müharibəsinin qarşısını almağa nail olan Ulu Öndər 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi və bu tarix dövlətçilik salnaməsinə Milli Qurtuluş Günü kimi həkk olundu.



Milli Qurtuluş Günündən cəmi 9 gün sonra - 24 iyun 1993-cü ildə Milli Məclisin qərarı ilə daha bir tarixi qərar qəbul edildi. Respublika Prezidentinin səlahiyyəti Ali Sovetin Sədri Heydər Əliyevə keçdi. Bu tarix müstəqil Azərbaycan dövlətinin iflasdan xilas olaraq yeni inkişaf, quruculuq və dirçəliş dönəminə qədəm qoyduğu ən əlamətdar günə çevrildi.

8

## Prezident İlham Əliyevin sosial media hesablarında Sərdar Berdiməhəmmədovun Azərbaycana səfəri ilə bağlı videoçarx paylaşılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial media hesablarında Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana ikigünlük dövlət səfəri ilə bağlı videoçarx paylaşılıb.




AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Qarabağın bərpasında kömək Türkmənistanın, onun Ümummilli Liderinin və bütün qardaş Türkmənistan xalqının Azərbaycana səmimi, dostcasına münasibətinin daha bir göstəricisidir. Türkmənistan xalqına ən xoş arzularla!"

**https://video.azertag.az/site/video/325199**

## Lüksemburqun Böyük Hersoqu əlahəzrət Giyoma

Əlahəzrət!

Lüksemburq Böyük Hersoqluğunun milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2026-cı il*

## Qlobal qarşıdurmalar fonunda sabit və yüksələn Azərbaycan



Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin uğurları sayəsində son illər ölkənin qlobal və regional proseslərdə oynadığı rol genişlənmiş, ölkəmiz beynəlxalq əməkdaşlığın etibarlı tərəfdaşı, enerji təhlükəsizliyinin mühüm iştirakçısı, Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biri və müxtəlif siyasi platformalarda dialoq təşəbbüslərinin müəllifi kimi tanınmağa başlamışdır.

10

## Zəngin ənənə və güclü istehsal potensialı

### Azərbaycan maşınqayırma sənayesini qısaca belə təqdim etmək olar

Azərbaycan maşınqayırmasının inkişafı bilavasitə neft sənayesinin tələbatı ilə bağlı olub. İlk dövrlərdə xaricdən gətirilən avadanlıqlar Nobel qardaşlarının, Rotşildlərin, Hacı Zeynalabdin Tağıyevin, Şəmsi Əsədullayevin, Murtuza Muxtarovun və digər sahibkarların emalatxanalarında təmir olunur, təkmilləşdirilir və istismar üçün hazırlanırdı. Məhz həmin emalatxanalar sonralar ölkənin ilk maşınqayırma müəssisələrinin əsasını təşkil edərək, Azərbaycanın sənaye tarixində yeni bir mərhələnin başlanğıcını qoydu. Beləliklə, ölkədə neft-maşınqayırma sənayesi formalaşaraq iqtisadiyyatın aparıcı istiqamətləri sırasında yer aldı.



Məhz bu tarixi və sənaye bazası üzərində formalaşan Azərbaycan neft maşınqayırması sonrakı dövrlərdə ölkənin ən mühüm sənaye sahələrindən birinə çevrildi. Neft sənayesinin inkişafı ilə paralel olaraq maşınqayırma müəssisələrinin istehsal imkanları genişləndi, yeni texnologiyalar tətbiq olundu və tədricən regional əhəmiyyət daşıyan sənaye kompleksi kimi diqqət çəkməyə başladı. Uzun illər Azərbaycanda istehsal olunan neft maşınqayırması məhsullarının əsas hissəsi "Azneftkimyamaş" sisteminə daxil olan müəssisələr tərəfindən buraxıldı.

9

## Strateji hədəflər və perspektivli gələcək



Azərbaycandan keçən dəhlizlər bir çox ölkələr üçün əlaqələndirilmiş və razılaşdırılmış nəqliyyat vətərini yaradır. Bu sahədə bir çox işlərin görüləcəyini bildirən dövlətimizin başçısı nəqliyyat-logistika sektorunun dövlətin prioritetlərindən biri olduğunu deyib: "Biz Azərbaycanı daha da güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik. Məqsədimiz Azərbaycan ərazisindən daşınan yüklərin həcmini iki dəfə artırmaqdır. Hazırda bu göstərici təxminən 14-15 milyon ton təşkil edir və biz bu rəqəmi ikiqat artırmağı hədəfləyirik. Əlbəttə, bunun hamısı yalnız bizdən asılı deyil. Bu, həm geosiyasi vəziyyətdən, həm də regiondakı ümumi şəraitdən asılı olacaq. Lakin bunlar bizim planlarımızdır".

8

◆ Türkmənistan Prezidentinin Füzuliyə və Şuşaya səfəri

# Qarabağ və Şərqi Zəngəzurdakı möhtəşəm quruculuq ali qonaqları heyran edir

## Füzuli Beynəlxalq Hava Limanında qarşılanma

**Azərbaycanda dövlət səfərində olan Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov iyunun 23-də Füzuli rayonuna gəlib.**

AZƏRTAC xəbər verir ki, Füzuli Beynəlxalq Hava Limanında Türkmənistan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Sərdar Berdiməhəmmədovu Prezident İlham Əliyev qarşıladı.




## Azərbaycan və Türkmənistan prezidentləri Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar





**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Füzuli şəhərinin dağıdılmış yerlərinə baxıblar.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov 30 illik işğal dövründə Füzuli rayonunun ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş dağıntılar, vandalizm aktları, həmçinin şəhərin Baş planına uyğun olaraq həyata keçirilən və nəzərdə tutulan işlər barədə Türkmənistan Prezidentinə məlumat verdi.

Bildirildi ki, vaxtilə sıx məskunlaşmış və inkişaf edən Füzuli şəhəri erməni işğalı zamanı tamamilə talan edilərək viran qoyulub. İşğaldan azad ediləndən sonra qısa müddətdə şəhərin Baş planı hazırlanıb və dövlətimizin başçısı tərəfindən təsdiqlənib. Füzuli böyük nəqliyyat-logistika potensialına malik olmaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əsas nəqliyyat arteriyalarının kəsişməsində yerləşir. Ümumi sahəsi 2 min hektara yaxın olan Füzuli şəhərinin Baş planına əsasən, 2040-cı ilə qədər burada 50 min nəfərin yaşaması nəzərdə tutulur. Müasir şəhərsalma standartlarına uyğun yenidən qurulan Füzulidə "Ağıllı şəhər" konsepsiyası tətbiq olunacaq.

Ali qonağa Türkmənistan tərəfindən Füzulidə inşa olunan məscid barədə də məlumat verildi.

Qeyd edilib ki, bu məscidin təməlini Prezident İlham Əliyev, Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov və Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının ötən ilin oktyabrında Qəbələdə keçirilmiş 12-ci Zirvə Görüşündə iştirak edən digər dövlət və hökumət başçıları onlayn formatda qoyublar.

Məscid kompleksinin ümumi ərazisi 1 hektardan çoxdur. Məscidin hər biri 40 metrdən ibarət 2 minarəsi olacaq. Əsas günbəzin hündürlüyü isə 30 metr təşkil edəcək. Məsciddə eyni vaxtda 500 nəfər ibadət edə biləcək.

## Azərbaycan və Türkmənistan prezidentləri Şuşanın Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər



İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşa rayonunun Daşaltı kəndinin fonunda şəkil çəkdiriblər.

## Prezidentlər İlham Əliyev və Sərdar Berdiməhəmmədov Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olublar





**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olublar.**

AZƏRTAC xəbər verir ki, Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov Türkmənistan Prezidentinə kompleks barədə məlumat verdi.

Bildirildi ki, təməli 2021-ci ildə dövlətimizin başçısı tərəfindən qoyulan və ümumi sahəsi 8 hektara yaxın olan bu kompleksdə iyirmi üç bina inşa edilib. Yaşayış kompleksindəki 450 mənzildən 28-i birotaqlı, 195-i ikiotaqlı, 190-ı üçotaqlı, 30-u dördotaqlı, 7-si isə beşotaqlıdır. Kompleksdə keçmiş məcburi köçkünlər, həmçinin xidməti mənzillərdə Şuşa şəhərində müxtəlif dövlət qurumlarında çalışan şəxslər yaşayırlar. Burada genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb, sakinlərin rahatlığı və istirahəti üçün hər cür şərait yaradılıb.

## Azərbaycan və Türkmənistan prezidentləri Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar





**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov Azərbaycanın və Türkmənistanın dövlət başçılarına məsciddə görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, təməli 2021-ci ildə Azərbaycan Prezidenti tərəfindən qoyulan məscid tarixi şəhərin yeni müasir rəmzi kimi ucalmaqdadır.

Zəfər Gününün rəmzi olaraq 8 rəqəmi formasında inşa edilən məscid əsas və inzibati binalardan, o cümlədən kişi və qadın dəstəmazxanalarından ibarət olacaq. Məscidin hündürlüyü 73 metr olacaq iki minarəsi Şuşanın ilin on birinci ayında azad edilməsinin rəmzi kimi 11 rəqəmini simvolizə edəcək.



Bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək. Məscidin tikintisi "Paşa Holdinq"in dəstəyi ilə reallaşır.

Yeni inşa edilən məscid Azərbaycanın işğaldan azad olunan ərazilərində həyata keçirilən bərpa və quruculuq işlərinin mühüm layihələrindən biri olmaqla, Qarabağın dirçəlişini və xalqımızın milli-mənəvi dəyərlərə bağlılığını əks etdirir.

## Şuşada "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanışlıq





**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, "Heydər Əliyev və Qarabağ" sərgisində Ulu Öndərin Qarabağın siyasi, iqtisadi, sosial və mədəni inkişafında xidmətlərini əks etdirən fotoşəkillər, sənədlər və videomateriallar nümayiş olunur. Burada eyni zamanda Ümummilli Liderin vaxtilə Qarabağa səfərlərinə, keçirdiyi müxtəlif görüş və tədbirlərə aid fotolar da yer alıb. Sərginin ekspozisiyası 1969-cu ildən başlayaraq Qarabağın və Şərqi Zəngəzurun tarixində başlanan böyük dönüş dövrünü ziyarətçilərə çatdırır. Doğma xalqının böyük təəssübkeşi olan dahi şəxsiyyət Heydər Əliyevin mürəkkəb tarixi şəraitdə bölgənin həyatının bütün sahələrində reallaşdırdığı geniş islahatlara dair faktlar foto və videomateriallar vasitəsilə ziyarətçilərə çatdırılır. Sərgidə Ümummilli Lider Heydər Əliyevin həyatı və siyasi fəaliyyətindən bəhs edən "İz" filmi də nümayiş olunub.

◆ Türkmənistan Prezidentinin Füzuliyə və Şuşaya səfəri

# Qarabağ və Şərqi Zəngəzurdakı möhtəşəm quruculuq ali qonaqları heyran edir

## Prezidentlər İlham Əliyev və Sərdar Berdiməhəmmədov Şuşada Azərbaycanın tanınmış şəxsiyyətlərinin işğal dövründə güllələnmiş büstlərinə baxıblar



**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə güllələnmiş büstlərinə baxıblar.**




AZƏRTAC xəbər verir ki, Türkmənistan Prezidentinə işğal dövründə erməni vandalizminə məruz qalan bu büstlərin talan edilərək Ermənistana aparıldığı və metal qırıntısı kimi əridilməyə cəhd göstərildiyi barədə məlumat verildi. Məhz Ulu Öndər Heydər Əliyevin müdaxiləsi nəticəsində abidələr xilas edilərək Azərbaycana gətirilib. Bir müddət Bakıda Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində saxlanılan bu büstlər Şuşa işğaldan azad olunduqdan sonra əvvəlki yerlərinə qaytarılıb.

## Türkmənistan Prezidentinə Qarabağ atı hədiyyə edilib







**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Şuşada Cıdır düzündə olublar.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev burada Türkmənistan dövlətinin başçısına "Mərd" adlı Qarabağ atını hədiyyə edib.

## Bülbülün ev-muzeyi ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov iyunun 23-də Şuşada Bülbülün ev-muzeyində olublar.**



AZƏRTAC xəbər verir ki, Milli Məclisin deputatı Polad Bülbüloğlu ali qonağa Bülbülün ev-muzeyi barədə məlumat verdi. Bildirdi ki, atasının anadan olduğu və uşaqlıq illərini keçirdiyi bu ev Ulu Öndərin göstərişi ilə Şuşa Şəhər Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin 1982-ci ildə qəbul etdiyi qərarla Bülbülün ev-muzeyinə çevrilib. 1982-1983-cü illərdə təmir olunan binada muzey ekspozisiyası qurulub və önündə inzibati bina tikilib. Şuşanın işğalı zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandıran ev-muzeyinin bərpasına digər tarixi-mədəni abidələrimiz kimi, qədim şəhərimizin işğaldan azad olunmasından sonra başlanılıb. Həyətdə Bülbülün yeni büstü ucaldılıb.

Bununla yanaşı, Şuşanın işğalı dövründə vandalizmə məruz qalmış büst də erməni işğalçılarının mədəni irsimizə qarşı törədilmiş cinayətlərin əyani sübutu kimi burada saxlanılır.

## Azərbaycan və Türkmənistan prezidentləri Şuşada birgə nahar ediblər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov iyunun 23-də Şuşada birgə nahar ediblər.**

## Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri başa çatıb



**İyunun 23-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovu yola saldı.

# Dövlət qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Abdullayev Həbib Fərhad oğlu
Ağakərimov Akif Ağakərim oğlu
Ağayeva Aynurə Ərəstun qızı
Allahverdiyeva Rəvanə Çingiz qızı
Bəylərova Təranə Yunus qızı
Cabbarov Vilayət Hidayət oğlu
Əhmədova Azadə Hüseyn qızı
Ələsgərov Asəf Musa oğlu
Əliyev Baxşeyiş Əli oğlu
Əliyeva Ellada İdris qızı
Əmirbəyov Fərhad Fikrət oğlu
Əsgərova Gülnarə Mərdan qızı
Fərzəliyev Azər Şamil oğlu
Hacıyeva Nigar Akif qızı
Haxıyev Üfüq Gülağa oğlu
Həbibbəyli Ərəstü İsa oğlu
Həsənova Lalə Eyvaz qızı
Qədimli Elxan Mürvət oğlu
Qənbərov Yusif Bəybala oğlu
Quliyev Ruslan Namiq oğlu
Quliyev Üzeyir Çərkəz oğlu
Mahmudov Rüstəm Bəhruz oğlu
Məhərrəmov İsmayıl Əsgər oğlu
Məmmədov Anar Rəhim oğlu
Məmmədov Azər Xəlil oğlu
Mikayıllı Həbib Rasim oğlu
Musayev Cavid Xəlil oğlu
Nəbiyev Cahangir Şükür oğlu
Rəhimov Niyazi Süleyman oğlu
Rüstəmli Ruslan Rüstəm oğlu
Şıxəliyev Ceyhun Yavər oğlu
Tağıyev Mehman Nəriman oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Abasova Sonaxanım Həcibala qızı
Abbasov Şöləddin Ziyad oğlu
Abbasov Tural Nadir oğlu
Abbasov Yaqub Aman oğlu
Abdullayev İsrafil Qasım oğlu
Abdullayev Mehman İsrayıl oğlu
Abdullayev Rövşən Aslan oğlu
Abdullayeva Ülviyyə Bazim qızı
Abdullazadə Fəxrintac Səbuhi qızı
Abdullazadə Xaliq Nəriman oğlu
Adıgözəlov Akif Əlövsət oğlu
Adıgözəlov Şaiq Əli oğlu
Ağayeva Zöhrə Gəray qızı
Alışov Nəsib Bəhlul oğlu
Allahverdiyeva Nairə Əvəz qızı
Almazova Xatirə Əbil qızı
Aslanov Ramiz Rasim oğlu
Aslanov Şahin Müzahim oğlu
Babayeva Raifə Şəmil qızı
Bayramov Elşən Arif oğlu
Bayramov İqbal Musa oğlu
Bayramova Gülşən Nəriman qızı
Bəşirov Elşad Tofiq oğlu
Budaqova Sənəm Nəsib qızı
Cabbarlı Reqina Ruslan qızı
Cabbarlı Vüsal Daxil oğlu
Cavadov Ruslan Teyyub oğlu
Cavadova Gülnaz Təyyar qızı
Cavadzadə Cavid Bəylər oğlu
Dadaşova Xırdaxanım Rəcəb qızı
Dəmirova Xeyransa Alim qızı
Eyyubov Abuzər Veyis oğlu
Əhmədov Fariz Şöhrət oğlu
Əhmədova Həlilə İntiqam qızı
Əhməd-zadə Fərəh Aqil qızı
Əkbərova Rübabə Məmməd Bağır qızı
Əliyev Aqşin Qabil oğlu
Əliyev Altun Asəf oğlu
Əliyev Anar Telman oğlu
Əliyev Elşad Nizami oğlu
Əliyev Hasil Vahid oğlu
Əliyev İbrahim Müseyib oğlu
Əliyev Mikayıl Rafiq oğlu
Əliyev Şövqi İsfəndiyar oğlu
Əliyeva Leyla Məzahir qızı
Əliyeva Pərvanə Qorxmaz qızı
Əliyeva Səlbi Cavanşir qızı
Əliyeva Validə Avtandil qızı
Əliyeva Zəminə Ədil qızı
Əli-zadə Mir Kamal Qabil oğlu
Əmirbəyova Raidə Eldar qızı
Əmrahov Raqif Mustafa oğlu
Əmrəliyev Vüqar Şahlar oğlu
Əsədli Nərminə Ehsan qızı
Əsgərəlizadə Vəsilə Azər qızı
Əsgərov Tural Behbud oğlu
Əzizov Yalçın Saleh oğlu
Fərəcov Aqşin Rafiq oğlu
Fətullayev Əziz Əli oğlu
Hacıyev Ruslan Tofiq oğlu
Hacıyeva Gülnar Cəfərağa qızı
Hacıyeva Mərziyyə Rafiq qızı
Hacıyeva Rifaət Fikri qızı
Hacızadə Talıb Arif oğlu
Həsənov Fəxri Akif oğlu
Həsənova Afaq Hümmət qızı
Həsənova Fidan Fuad qızı
Həsənova Kəmalə Zal qızı
Həsənova Sevda Səlim qızı
Hüseynov Anar Eldar oğlu
Hüseynov Elnar Vaqif oğlu
Hüseynov Elnur Nadir oğlu
Hüseynov Ənvər Fuad oğlu
Hüseynov Fərid Elman oğlu
Hüseynov İdris Ağaxan oğlu
Hüseynov Ramil Vəkil oğlu
Hüseynov Tofiq Nəriman oğlu
Hüseynov Turan Biləndər oğlu
Hüseynova Səidə Oqtay qızı
Hüseynova Vüsalə Cabbar qızı
Hüseynzadə Elmar Əli Muxtar oğlu
Xəlilov Rauf Tofiq oğlu
Xəlilov Vüsal Mirzəcan oğlu
Xudaverdiyev Məhəmmədəli Bayram oğlu
Xudayev Ramin Əmrah oğlu
İbrahimli Vüsal Şəmil oğlu
İbrahimov Emin Dadaş oğlu
İbrahimova Hökümə Kamran qızı
İsgəndərov Ceyhun Əmirastan oğlu
İskəndərov Elşad Eldar oğlu
İskəndərov Şahin Əvəz oğlu
İsmayılova Səadət Teyyub qızı
Kazımov Elşən Zahid oğlu
Kərimov Kərim Rafiq oğlu
Kərimov Orxan Rafiq oğlu
Kərimov Şahin Rafael oğlu
Qafarlı İradə Süleyman qızı
Qarayev Azər Mədəd oğlu
Qarayev Əmrah Niyazi oğlu
Qasımlı İlqar Bəkir oğlu
Qasımov Lətif Cəfər oğlu
Qasımov Murad Arif oğlu
Qəhrəmanov Cəsarət Qəhrəman oğlu
Qəhrəmanov Qəhrəman Arif oğlu
Qənbərov Mürsəl Məhərrəm oğlu
Qəribov Şəmsi Allahverdi oğlu
Qocayev İlqar Sadıq oğlu
Quliyev Elşən Arif oğlu
Quliyev Etibar Abasqulu oğlu
Quliyeva Sevda Sevindik qızı
Quluyev Elməddin Əlihüseyn oğlu
Qurbanlı Jalə Kamal qızı
Qurbanov Ceyhun Museyib oğlu
Qurbanova Kəmalə Misir qızı
Qurbanova Svetlana Qəməddin qızı
Qurbanzadə Türkan Ədalət qızı
Qüdrətli Vəfa Kadil qızı
Mahmudov Müqalib Bədəl oğlu
Mahmudov Səbuhi Şahin oğlu
Mehrəliyev Elçin Əlövsət oğlu
Məhərrəmov Orxan Xalıqverdi oğlu
Məhərrəmova Ruqiyyə Namiq qızı
Məlikov Mahir Zakir oğlu
Məmişov Kənan Həmzağa oğlu
Məmmədəliyev Elçin İsgəndər oğlu
Məmmədli Fariz Tofiq oğlu
Məmmədov Azər Elman oğlu
Məmmədov Elvin Şaiq oğlu
Məmmədov Əzizağa Ağababa oğlu
Məmmədov Kənan Arif oğlu
Məmmədov Namiq Xanoğlan oğlu
Məmmədov Sabir İbrahim oğlu
Məmmədov Vəli Ramazan oğlu
Məmmədova Fəridə Elçin qızı
Məmmədova Sevinc Məmməd qızı
Məmmədova Şahanə Şahin qızı
Məmmədova Vüsalə Rafiq qızı
Məmtiyev Tofiq Rəhim oğlu
Mikayılova Gülər Sahib qızı
Mirzəyev Rasim Rafiq oğlu
Mirzəzadə Anar Fərhad oğlu
Mirzəzadə Ramil Xanış oğlu
Mövsümov Anar Ağabala oğlu
Muradova Təravət Məmməd qızı
Nağıyev Hicran Asif oğlu
Nəbiyev İlkin Məmmədzadə oğlu
Nəbiyev Qamət İsmayıl oğlu
Nəbizadə Nəbi Rafiq oğlu
Nərimanova Nuranə Fazil qızı
Nəsirov Hikmət Arif oğlu
Nəsirova Nərmin Natiq qızı
Niftəliyev Qüddəsər Sədiyar oğlu
Novruzov Cümşüd Musa oğlu
Orucova Arzu Məmməd qızı
Osmanov Müşfiq Məmməd oğlu
Ömərova Vəfa Kamal qızı
Paşayev Allahverdi Oktay oğlu
Paşayev Faqil Teymur oğlu
Paşayev Sənay Oktay oğlu
Paşayeva Arifə Xanlar qızı
Pənahlı Rüfət Akif oğlu
Pənahov İlqar Əsgər oğlu
Rəhimov Ayaz Süleyman oğlu
Rəhimov Azər Binnət oğlu
Rüstəmli Samir Famil oğlu
Rüstəmov Kamal Elbrus oğlu
Rzayev Rauf Zeynal oğlu
Salmanova Maral Saday qızı
Sarıyeva Aynel Əlövsət qızı
Səfərəli Gülşən Rüfət qızı
Səlimbəyli Zeynəb İsa qızı
Səlimova Pərvin Ədalət qızı
Səlimova Reyhan Aslan qızı
Səmədova Turan Zakir qızı
Səttar-zadə Müşfiq Sahib oğlu
Sıraczadə Elvira Vaqif qızı
Soltanov Fərid Rafael oğlu
Sultanov Emil Telman oğlu
Sultanov Samir Əzim oğlu
Sultanov Səməd Samir oğlu
Süleymanov Abbas Qurban oğlu
Süleymanov Anar Zakir oğlu
Şamıyeva Roza Rafiq qızı
Şamilov İlkin Həmid oğlu
Şəfiyev Asif Nəriman oğlu
Şəfiyev Bahadir Ataməli oğlu
Şükürov Şirxan Bayram oğlu
Tağıyev Şahmar Camal oğlu
Tağızadə Anar Abil oğlu
Tairquliyeva-Nağıyeva Arzu Ələmdar qızı
Teymurov Rasim İbrahim oğlu
Turabova Amalya Paşa qızı
Umudov Elvin Natiq oğlu
Vəliyev Barat İlandiyar oğlu
Vəliyev Fərid Əzizağa oğlu
Vəliyev Sənan Mahmud oğlu
Vəliyeva Nigar Ələddin qızı
Yusubov İsa Həsən oğlu
Yusupova Marina Əlimuradovna
Zeynalov Eldəniz Sabir oğlu
Zeynalov Rasim Aydın oğlu
Zeynalov Vəfadar Kamil oğlu
Zeynalova Nərmin Alim qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyun 2026-cı il*

# İƏT Pİ Baş Komitəsinin 27-ci sessiyası keçirilib

İyunun 23-də Bakıda İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqının Baş Komitəsinin 27-ci sessiyası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclis Sədrinin müavini, İƏT Pİ-də Azərbaycan nümayəndə heyətinin rəhbəri Rafael Hüseynov tədbirə sədrlik edib.

Açılış nitqi ilə çıxış edən Rafael Hüseynov bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra üzv olduğu ilk beynəlxalq təşkilatlardan biri İslam Əməkdaşlıq Təşkilatı olub. O vurğulayıb ki, Azərbaycan xalqı və dövləti işğala məruz qaldığı dövrdə ölkəmizə ardıcıl dəstək göstərən beynəlxalq təşkilatlardan biri kimi İslam Əməkdaşlıq Təşkilatının mövqeyini hər zaman minnətdarlıqla xatırlayacaq. Rafael Hüseynov İƏT Pİ-nin bu təşkilata üzv dövlətləri maraqlandıran məsələlərin müzakirəsində əhəmiyyətli platforma olduğunu diqqətə çatdırıb.

Daha sonra çıxış edən İƏT Pİ-nin baş katibi Muhammed Xurayçi Niyass təşkilat çərçivəsində əməkdaşlığın, dialoqun və qarşılıqlı anlaşmanın əhəmiyyətini vurğulayıb. Baş katib ev sahibi ölkənin təşkilatçılıq səylərini yüksək qiymətləndirib, iclasın səmərəli müzakirələr, qərarlar və tövsiyələrlə yadda qalacağına əminliyini ifadə edib.

Sonra gündəliyin məsələləri müzakirə olunub.

Əvvəlcə bir sıra təşkilati məsələlərə baxılıb. İƏT Pİ-də Azərbaycan nümayəndə heyəti rəhbərinin müavini Ceyhun Məmmədov komitənin məruzəçisi seçilib.

Daha sonra sessiyanın gündəliyi və iş proqramı təsdiqlənib. Baş katibin hesabatı, İcraiyyə Komitəsi iclaslarının hesabatları dinlənilib və qəbul edilib. İclasda təşkilatın 2025-ci il üzrə maliyyə hesabatı da qəbul olunub, eləcə də növbəti il üçün büdcə layihələrinə baxılıb.

İclasda təşkilati məsələlər çərçivəsində İƏT Pİ Konfransının 20-ci sessiyasının yenilənmiş gündəliyinin layihəsinə baxılıb və müvafiq qərarlar qəbul edilib.

Bununla da İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının ikinci günü başa çatıb.

***"Azərbaycan"***

# Yəmən Azərbaycanla münasibətlərin inkişafında maraqlıdır

## Milli Məclisin Sədri Sahibə Qafarova Yəmən Respublikası Nümayəndələr Palatasının Sədri ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Yəmən Respublikası Nümayəndələr Palatasının Sədri Sultan Səid Əlbarkani ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Yəmənin Bakıda keçirilmiş COP29 tədbirində yüksək səviyyədə təmsil olunmasından və İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirakından məmnunluğunu bildirib.

Görüşdə ölkələrimizin müxtəlif platformalarda bir-birinə qarşılıqlı dəstək və həmrəylik nümayiş etdirdiyi qeyd olunub. Spiker Sahibə Qafarova Azərbaycanın Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə rəhbərliyi dövründə görülmüş işlər barədə məlumat verib. Tərəflər parlamentlərimizin beynəlxalq parlament təşkilatlarında, o cümlədən Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi çərçivəsində əməkdaşlıq etməsindən məmnunluqlarını ifadə ediblər. Söhbət zamanı ölkələrimiz arasında münasibətlərin dərinləşməsində parlamentlərarası əməkdaşlığın özünəməxsus rolu diqqətə çatdırılıb. Bildirilib ki, hər iki ölkənin qanunverici orqanında qarşılıqlı dostluq qruplarının yaradılması münasibətlərin inkişafına böyük töhfə olardı.

Görüşdə Nümayəndələr Palatasının Sədri Sultan Səid Əlbarkani İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının yüksək səviyyədə təşkilinə görə Azərbaycana təşəkkürünü bildirib və bu təşkilat çərçivəsində müzakirə olunan məsələlərin əhəmiyyətindən danışıb. Qonaq ölkəsinin Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduğunu və burada gördükləri inkişafdan məmnunluğunu bildirib. Söhbət zamanı Nümayəndələr Palatasının Sədri iki ölkənin müxtəlif sahələrdə əməkdaşlığı, o cümlədən parlamentlər arasında münasibətlərin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

Sultan Səid Əlbarkani Azərbaycanın Yəmən xalqına göstərdiyi mənəvi və humanitar yardımlara görə təşəkkürünü bildirib.

***"Azərbaycan"***

# Niger Azərbaycanın təcrübəsindən faydalanmaq istəyir

## Milli Məclisin Sədri Sahibə Qafarova Niger Respublikası Məsləhət Şurasının Sədri ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 23-də İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Niger Respublikası Məsləhət Şurasının Sədri Mamoudu Haruna Cinqarey ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə ölkələrimiz və parlamentlərimiz arasında əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

Söhbət zamanı qanunverici orqanlarımızın beynəlxalq parlament təşkilatlarında birgə əməkdaşlığı qeyd olunub. O cümlədən Parlamentlərarası İttifaq, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı kimi təşkilatlarda qarşılıqlı dəstəyinin əhəmiyyəti ifadə edilib. Spiker Sahibə Qafarova qonağa 2021-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, Parlament Şəbəkəsi 5 il ərzində həm institusional inkişaf, həm də beynəlxalq nüfuzunun artması baxımından böyük inkişaf yolu keçib.

Mamoudu Haruna Cinqarey göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirərək Azərbaycanın inkişafı və paytaxt Bakı haqqında müsbət təəssüratlarını ifadə edib. Qonaq ölkəmizin əldə etdiyi nailiyyətləri təqdir edərək deyib ki, bir çox ölkələr onilliklər ərzində belə, Azərbaycanın son illərdə qazandığı uğurlara nail ola bilməyiblər. Məsləhət Şurasının Sədri Nigerin Azərbaycan və Milli Məclis ilə münasibətləri dərinləşdirməkdə maraqlı olduğunu söyləyərək, ölkəmizin bir çox sahələrdə, o cümlədən enerji resurslarından səmərəli istifadə istiqamətində təcrübəsindən faydalanmaq istədiklərini vurğulayıb.

Qonaq həmçinin parlamentlərarası əməkdaşlıq məsələləri barədə fikirlərini bildirib, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyətində bundan sonra da aktiv iştirak edəcəklərini diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Mozambik Respublika Assambleyasının Sədri ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Mozambik Respublikası Respublika Assambleyasının Sədri Marqarida Talapa ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə İƏTPİ Konfransının 20-ci sessiyasının əhəmiyyəti barədə fikirlər səsləndirilərək, Parlament İttifaqının müsəlman ölkələri və onların qanunverici orqanları arasında əlaqələrin daha da güclənməsində vacib rolu diqqətə çatdırılıb. Spiker Sahibə Qafarova ölkələrimizin və parlamentlərimizin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının və qarşılıqlı dəstəyinin əhəmiyyətini qeyd edib. O, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti barədə məlumat verib.

Söhbət zamanı parlamentlər arasında əməkdaşlıq məsələlərinə nəzər salınıb, parlamentarilər arasında təmasların və qarşılıqlı səfərlərin həyata keçirilməsi ilə bağlı fikirlər səsləndirilib.

Marqarida Talapa göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını bildirərək, ölkəmizə səfəri və paytaxt Bakı haqqında xoş təəssüratlarını bölüşüb. Qonaq Parlament İttifaqı Konfransının əhəmiyyətini vurğulayıb və ölkəmizin tədbirin təşkili ilə bağlı gördüyü işləri yüksək qiymətləndirib.

O, Azərbaycanın Milli Məclisi ilə əlaqələrin genişlənməsinə böyük önəm verdiklərini bildirərək, parlamentlər arasında münasibətlərin ölkələrimiz arasında da əlaqələrə töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# Türkiyə Böyük Millət Məclisinin Sədri, Qətər Şura Məclisinin Sədri və Oman Sultanlığı Şura Məclisinin Sədri ölkəmizə səfərə gəliblər

Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Numan Kurtulmuş Azərbaycana işgüzar səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində TBMM Sədri Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak edəcək.

❖ ❖ ❖

Qətər Dövlətinin Şura Məclisinin Sədri Həsən bin Abdulla Əl-Qanim Azərbaycana işgüzar səfərə gəlib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində Şura Məclisinin Sədri Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak edəcək.

❖ ❖ ❖

Oman Sultanlığı Şura Məclisinin Sədri Xalid Hilal Nasir Əl-Maavali Azərbaycana işgüzar səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində Şura Məclisinin Sədri Bakıda keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasında iştirak edəcək, tədbirə qatılan bir sıra ölkələrin nümayəndə heyətləri ilə görüşlər keçirəcək.

# Milli Məclisdə görüş



İyunun 23-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı (İƏT Pİ) Konfransının 20-ci sessiyasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan İran İslam Respublikası parlamentinin üzvü Rouhollah Motefakker Azad ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, söhbət zamanı ölkələrarası və parlamentlərarası əlaqələrin mövcud vəziyyəti, gələcək inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. İki ölkənin qanunverici orqanları arasındakı əməkdaşlığın möhkəmləndirilməsi, deputatların beynəlxalq platformalarda mütəmadi görüşlərinin əhəmiyyətindən danışılıb.

Görüşdə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin Parlament İttifaqı Konfransının Bakıda keçirilən 20-ci sessiyasının, bu çərçivədəki tədbirlərin və müzakirə olunan məsələlərin müsəlman dünyasında parlamentlərarası əməkdaşlığın gücləndirilməsi baxımından önəmi vurğulanıb.

Söhbətdə tərəfləri maraqlandıran digər məsələlər də müzakirə olunub.

*"Azərbaycan"*

# İƏT Pİ-nin daimi komitələrində

Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Milli Məclisinin evsahibliyi ilə Bakıda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası keçirilir. İyunun 23-də sessiya işini daimi komitələrin iclasları ilə davam etdirib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Siyasi Məsələlər və Xarici Əlaqələr üzrə İxtisaslaşmış Daimi Komitənin 12-ci iclasında Azərbaycan parlamentariləri - Milli Məclisin komitə sədri Səməd Seyidov, deputatlar Ceyhun Məmmədov və Zaur Şükürov iştirak ediblər.

İclasa sədrlik edən İƏT Pİ-də Azərbaycan nümayəndə heyəti rəhbərinin müavini Ceyhun Məmmədov çıxışında Azərbaycanın müsəlman dünyasındakı proseslərə böyük diqqətlə yanaşdığını, islam ölkələri ilə əlaqələrin inkişaf etdirilməsinə böyük maraq göstərdiyini vurğulayıb. İclasın moderatoru gündəliyi təqdim edərək, məsələlərə münasibət bildirib.

Gündəliyə əsasən, iclasda Fələstin üzrə Daimi Komitənin 14-cü iclasının, Müsəlman İcmaları və Azlıqları Komitəsinin 5-ci iclasının hesabatına və qətnamələrinə baxılıb, digər məsələlərlə bağlı müvafiq qərarlar qəbul olunub.

❖ ❖ ❖

İqtisadi Məsələlər və Ətraf Mühit üzrə İxtisaslaşmış Daimi Komitənin 12-ci iclasında Milli Məclisin komitə sədri Sadiq Qurbanov, deputatlar Tahir Mirkişili və Fatma Yıldırım iştirak ediblər.

İclasa sədrlik edən deputat Tahir Mirkişili gündəliyin məsələlərinə münasibət bildirərək İƏT ölkələri arasında ticarətin təşviqi, elm və texnologiya sahəsində əməkdaşlıq, habelə startap layihələrinin dəstəklənməsi ilə bağlı fikirlərini bölüşüb.

Çıxış edən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov tədbir iştirakçılarına Azərbaycanda iqlim dəyişiklikləri, ətraf mühitin mühafizəsi, su ehtiyatlarından səmərəli istifadə sahəsində görülən işlər barədə məlumat verib.

Tədbirdə İƏT ölkələri arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi, iqtisadi institutların dəstəklənməsi, ətraf mühitin mühafizəsi və dayanıqlı inkişaf, iqlim dəyişikliklərinə qarşı mübarizə sahəsində əməkdaşlığın təşviqi kimi məsələlər müzakirə edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov komitənin məruzəçisi təyin olunub.

İclasda Azərbaycan və Türkiyənin düzəlişləri də nəzərə alınmaqla müzakirəyə çıxarılmış bir sıra qətnamələr qəbul edilib.

❖ ❖ ❖

Hüquqi və Mədəni Məsələlər, Sivilizasiyalar və Dinlər Dialoqu üzrə İxtisaslaşmış Daimi Komitənin 12-ci iclasında Milli Məclisin deputatları - Cavanşir Paşazadə, Fazil Mustafa və Kamal Cəfərov iştirak ediblər.

İclasa Milli Məclisin deputatı Kamal Cəfərov sədrlik edib. O, gündəliyi təqdim edərək, məsələlərə münasibət bildirib.

Komitədə islam mədəni irsinin və dini təsisatların mühafizəsi, islamofobiya ilə mübarizə, sivilizasiyalararası dialoqun genişləndirilməsi və digər məsələlər müzakirə olunub. Komitə üzvləri bu məsələlər üzrə birgə fəaliyyətin əhəmiyyətini vurğulayıblar, islam dünyasının ortaq maraqlarının müdafiəsi və mədəni-dini dəyərlərin qorunması istiqamətində əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyini qeyd ediblər.

İclasda müzakirə olunan mövzular üzrə müvafiq qətnamələr qəbul olunub.

❖ ❖ ❖

İnsan Hüquqları, Qadın və Ailə üzrə İxtisaslaşmış Daimi Komitənin 12-ci iclasında İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqında Azərbaycan nümayəndə heyətinin üzvləri - Tənzilə Rüstəmxanlı və Nigar Məmmədova iştirak ediblər.

İclas Milli Məclisin deputatı Nigar Məmmədovanın sədrliyi ilə baş tutub. O, çıxışında qeyd edib ki, insan hüquqlarının qorunması, ailə institutunun möhkəmləndirilməsi, qadınların və uşaqların müdafiəsi sahəsində beynəlxalq əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Deputat komitə çərçivəsində aparılan müzakirələrin, təcrübə mübadiləsinin üzv dövlətlər arasında bu istiqamətdə əməkdaşlığın daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Komitədə İƏT üzvü olan dövlətlərin parlamentləri arasında insan hüquqları məsələləri üzrə beynəlxalq və regional platformalarda fəaliyyətin əlaqələndirilməsi, qadınların cəmiyyətin bütün sahələrində, o cümlədən qərar qəbuletmədə iştirakının artırılması, islam dünyasında gənclərin təşəbbüslərinin dəstəklənməsi, uşaqların müdafiəsi və digər məsələlər müzakirə olunub.

Tədbirdə deputat Tənzilə Rüstəmxanlı çıxış edərək islam dünyasını birləşdirən ortaq dəyərlərdən danışıb, müzakirə olunan mövzulara münasibət bildirib.

İclasda müzakirə olunan məsələlər üzrə müvafiq qətnamələr qəbul olunub.

*"Azərbaycan"*

# Parlament komitələrinin videokonfrans formatında birgə iclası keçirilib

İyunun 23-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və Əmək və sosial siyasət komitələrinin videokonfrans formatında birgə iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasın gündəliyinə 10 qanun layihəsi daxil edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli iclası açaraq bildirib ki, ölkə Prezidentinin 2026-cı il 27 fevral tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" üzrə Tədbirlər Planı təsdiq edilib. Həmin sənəddə qiymətli kağızlar bazarı üzrə normativ hüquqi bazanın təkmilləşdirilməsi də nəzərdə tutulub.

Komitə sədri qeyd edib ki, sözügedən Tədbirlər Planının icrası məqsədilə Əmək Məcəlləsində, Mülki Məcəllədə, "Valyuta tənzimi haqqında", "Banklar haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və Vergi Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Dövlət satınalmaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri hazırlanıb.

O, layihələrin ümumi məqsədinin innovasiya fəaliyyətinin maliyyələşdirilməsi üzrə müasir, habelə beynəlxalq təcrübədə geniş tətbiq edilən hüquqi və maliyyə alətlərinin milli qanunvericilikdə tanınmasını təmin etməkdən, habelə rəqəmsal iqtisadiyyatın inkişafı üçün vergi, sosial sığorta, miqrasiya, gömrük, lisenziya və icazə, eləcə də dövlət satınalmaları sahəsində təşviq mexanizmlərinin formalaşdırılmasından ibarət olduğunu vurğulayıb.

Tədbirdə iştirak edən Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri Novruz Orucov qanun layihələrinin mahiyyəti barədə məlumat verib. Bildirilib ki, təqdim olunan layihələrdə Miqrasiya Məcəlləsində, Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" qanunda müəyyən güzəştlər nəzərdə tutulur. Təklif olunan dəyişikliklərdə ölkədə rəqəmsal inkişaf sahəsinə investisiya qoyuluşlarının stimullaşdırılması, sahibkarların vergi yükünün azaldılması, onların cəlb etdiyi işçilərin əməkhaqqının gəlir vergisindən azad edilməsi, işəgötürənlərin və işçilərin sosial sığortası ilə bağlı güzəştlərin tətbiqi nəzərdə tutulur. Bununla yanaşı, rəqəmsal səyyah institutunun müəyyənləşdirilməsi, gömrük ödənişlərinin azaldılması, dövlət satınalmalarında startapların, texnopark və sənaye parkları rezidentlərinin fəaliyyətinə dair güzəştlər, habelə vençur kapitalı fondlarının hüquqi bazasının formalaşdırılması ilə bağlı müddəalar da öz əksini tapıb.

Sonra parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bu məsələlər barədə fikirlərini açıqlayıb. O bildirib ki, nəzərdə tutulan dəyişikliklər rəqəmsal iqtisadiyyatın inkişafına xidmət edir, habelə vergi, əmək, sığorta, gömrük, miqrasiya, satınalmalar sahəsində yeni münasibətlərin formalaşmasında hüquqi əsasların yaradılmasını təmin edir. Qeyd olunub ki, təqdim edilən sənədlərə əsasən, Əmək Məcəlləsinə "işçilərin pay iştirakının planı haqqında müqavilə" anlayışı daxil edilir, müqavilənin şərtləri və əmək münasibətlərinə xitam verilməsi ilə bağlı qaydalar müəyyən edilir. "Sosial sığorta haqqında" qanuna təklif olunan dəyişiklikdə isə rəqəmsal iqtisadiyyat subyektləri üçün diferen-




siallaşdırılmış güzəştli rejim nəzərdə tutulur. Müzakirələrdə deputatlar Jalə Əliyeva, Soltan Məmmədov çıxış edərək, layihələrin əhəmiyyəti barədə fikirlərini söyləyiblər.

Sonra onlayn iclasda "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb. Bildirilib ki, sənəddə uyğunlaşdırma xarakterli dəyişikliklər təklif olunur.

Tədbirdə habelə Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) nəzərdən keçirilib. Diqqətə çatdırılıb ki, layihə torpaq ehtiyatlarından səmərəli və dayanıqlı istifadənin təmin edilməsi, torpaqların konsolidasiyası üçün hüquqi zəminin formalaşdırılması məqsədilə hazırlanıb.

Daha sonra Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli və "Aqrar sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) baxılıb. Qeyd edilib ki, layihədə daşınmaz əmlakın kadastrı və reyestri sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsi ilə bağlı zəruri dəyişikliklər nəzərdə tutulur.

Videokonfransda Cinayət Məcəlləsində, Cinayət-Prosessual Məcəllədə və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı diqqətə çatdırılıb ki, sənədə əsasən, iqtisadi fəaliyyət sahəsində olan bəzi cinayətləri törətmiş və cinayət nəticəsində vurulmuş ziyanı tamamilə ödəmiş və ya cinayət nəticəsində əldə edilmiş gəliri tamamilə dövlət büdcəsinə köçürmüş şəxslər, bundan əlavə vurulmuş ziyanın artıq bir misli yox, əlli faizi miqdarında dövlət büdcəsinə ödəniş etdikdə cinayət məsuliyyətindən azad ediləcəklər.

Növbəti məsələ - Mülki Məcəllədə, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lisenziyalar və icazələr haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı qeyd edilib ki, sənədin məqsədi "Kraudfanding haqqında" qanunun qəbul edilməsi ilə əlaqədar müvafiq qanunvericilik aktlarında uyğunlaşdırmaların aparılmasıdır.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsində (birinci oxunuş) isə sözügedən Məcəlləyə inzibati xəta törətmiş psixiatriya yardımına ehtiyacı olan şəxslərin psixiatriya müayinəsi ilə bağlı, kibertəhlükəsizliyin təmini sahəsində normativ hüquqi aktların tələblərinə dair maddələrin əlavə edilməsi, bəzi maddələrdə isə dəyişikliklər edilməsi nəzərdə tutulur.

Tədbirdə "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, habelə "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 2 fevral tarixli 340-VIIKQD nömrəli Konstitusiya Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri də müzakirə olunub.

Onlayn iclasın gündəliyinə daxil edilən qanun layihələrinin hamısı Milli Məclisin iclasında baxılmaq üçün tövsiyə olunub.

*"Azərbaycan"*

# İƏT Pİ-nin gələcək fəaliyyəti ilə bağlı məsələlər müzakirə edilib

İyunun 23-də İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası çərçivəsində regional qrupların - Ərəb, Afrika və Asiya qruplarının məşvərət görüşləri keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qruplarda təşkilatın strukturlarına namizədlərin müəyyənləşdirilməsi, gələcək fəaliyyət üzrə ortaq mövqenin əlaqələndirilməsi kimi təşkilati və koordinasiya məsələləri müzakirə olunub.

Milli Məclisin deputatları Ceyhun Məmmədov və Rizvan Nəbiyev Asiya Qrupunun toplantısında iştirak edərək gündəlikdə duran məsələlər üzrə müzakirələrdə iştirak ediblər.



Asiya Qrupunun məşvərət görüşünə deputat Rizvan Nəbiyev sədrlik edib. O, görüşdə çıxış edərək islam həmrəyliyinin möhkəmləndirilməsi, parlament diplomatiyasının inkişafı və müsəlman ölkələri arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikirlərini bölüşüb. Deputat vurğulayıb ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvü kimi islam dünyasında dialoqun, həmrəyliyin və qarşılıqlı əməkdaşlığın təşviqinə mühüm töhfələr verir, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz islam dünyası ilə beynəlxalq ictimaiyyət arasında etibarlı körpü rolunu uğurla yerinə yetirir.

R.Nəbiyev çıxışında parlament diplomatiyasının roluna toxunaraq bildirib ki, qanunverici orqanlar dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqində, çoxtərəfli əməkdaşlığın gücləndirilməsində və ümumi çağırışlara qarşı birgə fəaliyyətin təşkilində mühüm rol oynayırlar.

İclasda İƏT Pİ-də Azərbaycan nümayəndə heyəti rəhbərinin müavini Ceyhun Məmmədov çıxış edərək Azərbaycanın zəngin islam irsinin qorunması və bərpasına verdiyi töhfələri vurğulayıb, gündəliyin bəzi məsələlərinə münasibət bildirib.

Görüşdə İƏT Pİ-nin növbəti tədbirlərinin təşkili, qurumun təsisatlarının formalaşdırılması kimi təşkilatın gələcək fəaliyyəti ilə bağlı məsələlər müzakirə edilib, müvafiq qərarlar qəbul olunub.

*"Azərbaycan"*

# ABŞ-də azərbaycanlıların Ermənistanda etnik təmizləməyə məruz qalmasına dair beynəlxalq konfrans keçiriləcək

Bu gün ABŞ-nin paytaxtı Vaşinqton şəhərində, Konqres binasında Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Qayıdış hüququ və öz müqəddəratını təyinetmə: ikili standartlar və selektiv yanaşmalar" mövzusunda beynəlxalq konfrans keçiriləcək. Bu barədə AZƏRTAC-a Bakı Təşəbbüs Qrupundan məlumat verilib.

Bildirilib ki, bu, azərbaycanlıların Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmasına dair ABŞ Konqresində keçirilən ilk belə tədbirdir.

Konfransda qaçqınların və milli azlıqların hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşmış ekspertlər, insan hüquqları müdafiəçiləri, beynəlxalq hüquq üzrə mütəxəssislər, etnik mənsubiyyətinə görə zorakılıq, ayrı-seçkilik və təqiblərə məruz qalmış diaspor təşkilatlarının nümayəndələri, vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri və zərərçəkmiş icmaların nümayəndələri iştirak edəcək.

Tədbir iştirakçıları etnik təmizləmə siyasəti nəticəsində Ermənistan ərazisindəki tarixi torpaqlarından zorla qovulmuş yüz minlərlə azərbaycanlının nümunəsində fundamental hüquqlarının - öz tarixi torpaqlarına təhlükəsiz, könüllü və ləyaqətli şəkildə qayıdış hüququnun tanınmasının beynəlxalq təşkilatların diqqət mərkəzində daim saxlanılması məsələsini müzakirə edəcəklər. Ermənistanda qalan Azərbaycan xalqına məxsus mədəni, dini və tarixi irsin, o cümlədən toponimlərin, məscidlərin, qəbiristanlıqların, ziyarətgahların və digər abidələrin sistemli şəkildə dağıdılması, təhqir olunması və mənimsənilməsi faktlarına beynəlxalq hüquq müstəvisində hüquqi qiymət verilməsi, qeyd olunan pozuntuların BMT və onun aidiyyəti strukturları çərçivəsində beynəlxalq hesabatlılıq və monitorinq mexanizmlərinə çıxarılması, yerində araşdırılması və sənədləşdirilməsi, bu məqsədlə faktaraşdırıcı missiyaların cəlb olunması, eləcə də xüsusi məruzəçilər və digər beynəlxalq mandat sahibləri səviyyəsində araşdırma və hesabatlılıq mexanizmlərinin işlənib hazırlanması imkanları ətrafında fikir mübadiləsi aparılacaq.

Tədbirdə həmçinin müstəmləkəçilikdən əziyyət çəkən xalqların öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsi, xüsusilə koloniyaların BMT-nin Dekolonizasiya edilməli olan Özünüidarəetməyən Ərazilər siyahısına salınmasının BMT-nin gündəliyinə salınması məsələləri ətrafında müzakirələr aparılacaq.

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclasında insan hüquqları üzrə müvəkkilin sorğusuna baxılıb

Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib. Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsindən məlumat verilib.

Bildirilib ki, iclasda Konstitusiyanın 130-cu maddəsinin VII hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" qanunun 7.1-ci maddəsinə əsasən, Cinayət Məcəlləsinin 133-cü maddəsinin Konstitusiyanın maddələrinə uyğunluğunun yoxlanılmasına dair insan hüquqları üzrə müvəkkilin (ombudsmanın) sorğusuna baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Sorğuya mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun iyulun 17-nə təyin olunmuş iclasında baxılacaq.

# Azərbaycanın namizədi BMT-nin Uşaq Hüquqları Komitəsinin 2027-2031-ci illər üzrə üzvlüyünə seçilib

İyunun 23-də Nyu York şəhərində Uşaq Hüquqları haqqında Konvensiyaya tərəf dövlətlərin 21-ci iclası çərçivəsində Azərbaycan Respublikasının namizədi BMT-nin Uşaq Hüquqları Komitəsinin (CRC) 2027-2031-ci illər üzrə üzvlüyünə seçilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, ciddi beynəlxalq rəqabət şəraitində baş tutmuş seçkilərdə Azərbaycanla birgə 16 ölkədən olan namizədlər komitədə mövcud 9 vakant yer uğrunda mübarizə aparıb. Azərbaycan Respublikası tərəfindən namizədliyi irəli sürülmüş Esseks Universitetinin doktorantı Fərid Ədilov səsvermənin ilk mərhələsində iştirakçı dövlətlərin əksəriyyətinin etimadını qazanaraq, 130 səslə komitəyə üzv seçilib.

Beləliklə, Azərbaycan Respublikasının vətəndaşı ilk dəfə olaraq sözügedən komitədə təmsil olunacaq. BMT-nin Uşaq Hüquqları Komitəsi 1989-cu il Uşaq Hüquqları haqqında Konvensiyanın icrasına nəzarət edən nüfuzlu müqavilə qurumudur. Komitə qlobal miqyasda seçilən 18 müstəqil ekspertdən ibarət olmaqla, Konvensiyaya tərəf dövlətlərin öhdəliklərinin yerinə yetirilməsini nəzərdən keçirir.

# Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

## Qaxda Şəki-Zaqatala iqtisadi rayonu üzrə regional müşavirə keçirilib

Bu gün Şəki-Zaqatala iqtisadi rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsi ilə bağlı regional müşavirə keçirilib.






AZƏRTAC xəbər verir ki, tədbir Prezident İlham Əliyevin sədrliyi ilə 2026-cı il 25 may tarixində kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və dövlət proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilib. Müşavirədə aidiyyəti dövlət qurumlarının nümayəndələri, Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonlarından olan fermer və sahibkarlar iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib ki, qlobal çağırışlar və dəyişən iqtisadi şərait kənd təsərrüfatında yeni yanaşmaların tətbiqini zəruri edir. O qeyd edib ki, Azərbaycan Prezidentinin təsdiq etdiyi 2026-2030-cu illər üzrə dövlət proqramı aqrar sahənin potensialından daha səmərəli istifadəyə və dayanıqlı inkişafın təmininə xidmət edir. Şahmar Mövsümov vurğulayıb ki, qarşıdakı illərdə əsas diqqət məhsuldarlığın artırılmasına, müasir texnologiyaların tətbiqinə, su və torpaq resurslarının səmərəli idarə olunmasına yönələcək. Eyni zamanda kənd təsərrüfatı məhsullarının emalı və bazara çıxış imkanlarının genişləndirilməsi fermerlərin gəlirlərinin artmasına əlavə stimul verəcək. O bildirib ki, dövlət tərəfindən yaradılmış imkanlardan səmərəli istifadə və sahibkarların təşəbbüskarlığı bu hədəflərə çatmaqda mühüm rol oynayır. Proqramın uğurlu icrasının aqrar sektorun rəqabət qabiliyyətini artırmaqla yanaşı, regionların sosial-iqtisadi inkişafına və ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə töhfə verəcəyi qeyd olunub.

Daha sonra kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev aqrar sahənin inkişafı istiqamətində qarşıda duran əsas prioritetlər və dövlət proqramında nəzərdə tutulan hədəflər barədə ətraflı məlumat verib. O bildirib ki, proqram aqrar sahədə innovativ yanaşmaların genişləndirilməsi, emal sənayesinin inkişafı, əlavə dəyər zəncirinin gücləndirilməsi və fermerlərin iqtisadi imkanlarının artırılmasına xidmət edir. Nazir müavini vurğulayıb ki, qarşıya qoyulan hədəflərə nail olmaq üçün dövlət dəstəyi mexanizmləri daha da təkmilləşdiriləcək, innovativ yanaşmalar və rəqəmsal həllərin tətbiqi genişləndiriləcək. Zaur Əliyev dövlət proqramının uğurlu icrasının ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, regionların sosial-iqtisadi inkişafına və aqrar sektorun yeni inkişaf mərhələsinə keçidinə mühüm töhfə verəcəyini qeyd edib.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədrinin birinci müavini Xəyyam Məmmədov bildirib ki, dövlət proqramının hədəflərinə nail olunmasında su ehtiyatlarının səmərəli idarə olunması mühüm əhəmiyyət daşıyır. O qeyd edib ki, Şəki-Zaqatala iqtisadi rayonunda həyata keçirilən layihələr regionun su təminatının yaxşılaşdırılmasına, məhsuldarlığın artırılmasına və yeni əkin sahələrinin dövriyyəyə cəlb edilməsinə şərait yaradacaq. Eyni zamanda iqlim dəyişiklikləri fonunda müasir suvarma texnologiyalarının tətbiqi, su itkilərinin azaldılması və infrastrukturun yenilənməsinin vacibliyi vurğulanıb. Agentlik tərəfindən suvarma şəbəkələrinin, hidrotexniki qurğuların və subartezian quyularının vəziyyətinin yaxşılaşdırılması istiqamətində işlərin davam etdirildiyi bildirilib.

Şəki Rayon İcra Hakimiyyətinin başçısı Elxan Usubov aqrar sahədə həyata keçirilən məqsədyönlü siyasətin regionların sosial-iqtisadi inkişafına mühüm təkan verdiyini vurğulayıb. O qeyd edib ki, dövlət proqramı Şəki rayonunda kənd təsərrüfatının daha müasir əsaslarla inkişafı üçün geniş perspektivlər açır. Bildirilib ki, Əlicançay və Əyriçay su anbarları kimi strateji layihələrin icrası suvarma imkanlarını genişləndirərək taxılçılıq və digər sahələrdə məhsuldarlığın əhəmiyyətli dərəcədə artmasına şərait yaradacaq. Elxan Usubov qeyd edib ki, rayonda aqrar sahəyə yatırılan investisiyalar, fəaliyyət göstərən emal müəssisələri və sahibkarlıq təşəbbüsləri məşğulluğun artırılmasına və iqtisadi fəallığın güclənməsinə xidmət edir.

Müşavirədə iştirak edən fermerlər və sahibkarlar aqrar sahədə həyata keçirdikləri fəaliyyətlər, layihələr və gələcək planlar barədə məlumat veriblər. Çıxışlarda dövlətin aqrar sahəyə göstərdiyi diqqət və dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür ifadə olunub. Qeyd edilib ki, tətbiq olunan dəstək mexanizmləri və infrastruktur layihələri bölgələrdə yeni imkanlar yaradaraq təsərrüfatların inkişafına, məhsuldarlığın və gəlirlərin artmasına şərait formalaşdırıb. Bildirilib ki, dövlət proqramında nəzərdə tutulan tədbirlər aqrar istehsalın daha səmərəli təşkili, emal sənayesinin inkişafı və ixrac potensialının genişlənməsinə mühüm töhfə verəcək.

Müşavirənin yekununda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib ki, dövlət proqramının uğurlu icrası üçün bütün aidiyyəti qurumlar operativ fəaliyyətə keçməli və rayonlar üzrə prioritet istiqamətlər dəqiqləşdirilməlidir. Yerli icra hakimiyyəti orqanlarının üzərinə də böyük məsuliyyətin düşdüyünü deyən Şahmar Mövsümov əlavə edib ki, hər bir rayon üzrə sosial-iqtisadi inkişaf planlarının dövlət proqramında müəyyən edilmiş hədəf və prioritetlərə uyğun hazırlanması və icrasının təmin edilməsi zəruridir. Qeyd olunub ki, dövlət proqramının icrasında dövlət və özəl sektorun koordinasiyalı fəaliyyəti, xüsusilə sahibkar və fermerlərin fəallığı həlledici əhəmiyyət daşıyır. Şahmar Mövsümov vurğulayıb ki, dövlət proqramından irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi müəyyən edilmiş hədəflərə nail olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

## Azərbaycan aqrar sektoru intensiv inkişaf modelinə keçir

### Saatlıda keçirilən regional müşavirədə bu keçidin əsas istiqamətləri müzakirə edildi

Torpaq əsrlər boyu Azərbaycan insanı üçün yalnız dolanışıq mənbəyi olmayıb, həm də zəhmətin, ruzi-bərəkətin, milli sərvətin və dövlətin iqtisadi qüdrətinin əsas dayaqlarından biri kimi qəbul edilib. Bu baxımdan müasir dövrün çağırışları aqrar sahəyə münasibətdə də yeni yanaşmalar tələb edir.






İqlim dəyişiklikləri, su ehtiyatlarının məhdudlaşması, qlobal ərzaq bazarında baş verən proseslər artıq kənd təsərrüfatında yalnız ənənəvi üsullarla yüksək nəticələr əldə etməyin mümkünsüz olduğunu göstərir. Bu gün əsas məsələ daha çox torpaq əkmək deyil, mövcud resurslardan daha səmərəli istifadə etməklə yüksək məhsuldarlığa nail olmaqdır.

Prezident İlham Əliyevin 25 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" məhz bu yeni inkişaf fəlsəfəsinin ifadəsidir. Aqrar sektorda keyfiyyətcə yeni mərhələnin əsasını qoyan proqramın icrasına həsr olunmuş Mil-Muğan iqtisadi rayonu üzrə regional müşavirənin Saatlıda keçirilməsi isə təsadüfi deyildi. Çünki Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonlarını əhatə edən bu iqtisadi region ölkənin taxılçılıq, pambıqçılıq və heyvandarlıq potensialının mühüm hissəsini özündə cəmləşdirir.

Müşavirəyə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirov sədrlik edirdi. Prezidentin köməkçisi çıxışında son onillikdə aqrar sahədə həyata keçirilmiş islahatların nəticələrinin yeni inkişaf mərhələsi üçün möhkəm zəmin yaratdığını diqqətə çatdırdı. Onun sözlərinə görə, üzümçülükdən pambıqçılığa, çayçılıqdan baramaçılığa qədər bir sıra ənənəvi sahələr üzrə qəbul edilən dövlət proqramları mühüm nəticələr verib, meyvə-tərəvəz və yumurta istehsalında tam özünütəminetmə səviyyəsinə nail olunub, bir çox məhsullar üzrə daxili təminat göstəriciləri yüksəlib. N.Əmirov onu da vurğuladı ki, yeni dövlət proqramı qarşıdakı dövr üçün aqrar sektorun inkişaf modelini müəyyən edən strateji yol xəritəsidir: "Əsas məqsəd yalnız istehsal həcmini artırmaq deyil, hər hektardan daha yüksək və daha keyfiyyətli məhsul əldə etməkdir. Aqrar sahədə ekstensiv yanaşmadan intensiv inkişaf modelinə keçid təmin edilməlidir".

Dövlət rəsmisi qeyd etdi ki, yeni proqram məhsul istehsalının artırılması, emal və ixrac imkanlarının genişləndirilməsi, əlavə dəyər zəncirinin formalaşdırılması, balıqçılıq və akvakultura sahələrinin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

Müşavirədə kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova təqdimatında proqramın strukturunu və qarşıdakı illər üçün müəyyən edilmiş əsas hədəfləri iştirakçıların diqqətinə çatdırdı. Bildirdi ki, proqram 5 strateji məqsədi, 5 prioritet istiqaməti, 16 fəaliyyət sahəsini, 86 konkret tədbiri və 23 hədəf indikatorunu özündə birləşdirir. Onun sözləri ilə desək: "Bu sənəd ümumi niyyətlər toplusu deyil, konkret hədəflərə, icra mexanizmlərinə və nəticə göstəricilərinə əsaslanan kompleks inkişaf proqramıdır".

İlhamə Qədimova həmçinin vurğuladı ki, yeni mərhələdə əsas məqsəd torpaq və su ehtiyatlarından səmərəli istifadə etməklə məhsuldarlığın maksimum artırılmasıdır: "Biz daha çox torpaqdan istifadə etməklə deyil, mövcud torpaq və su resurslarından daha səmərəli istifadə etməklə yüksək məhsuldarlığa nail olmalıyıq".

Müşavirədə diqqətçəkən məqamlardan biri aqrar sahədə rəqəmsallaşmanın yeni mərhələyə qədəm qoyması ilə bağlı oldu. Qeyd olundu ki, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin məlumat bazaları genişləndiriləcək, süni intellekt həlləri tətbiq olunacaq, peyk müşahidələri, torpaq və su ehtiyatları barədə məlumatlar idarəetmədə geniş istifadə ediləcək. Bu yanaşma kənd təsərrüfatında elmi əsaslara söykənən idarəetmə sisteminin formalaşdırılmasını nəzərdə tutur. İlhamə Qədimova diqqəti Mil-Muğan iqtisadi rayonunun ölkənin taxılçılıq və pambıqçılıq strategiyasında mühüm yer tutduğuna yönəltdi. Bildirdi ki, ölkə üzrə 22 rayon taxılçılıq, 15 rayon isə pambıqçılıq üzrə hədəf rayonlar kimi müəyyən olunub və Mil-Muğan iqtisadi rayonunun bütün rayonları bu siyahıya daxildir. Qeyd edildi ki, yeni proqram çərçivəsində hədəf rayonlarda buğda və pambıq üzrə orta məhsuldarlığın 50 sentnerə çatdırılması nəzərdə tutulur. Bu məqsədlə müasir suvarma sistemləri genişləndiriləcək, texnika təminatı yaxşılaşdırılacaq, lazer hamarlama texnologiyası tətbiq olunacaq, dövlət dəstəyi mexanizmləri gücləndiriləcək, aqrotexniki tədbirlərə nəzarət artırılacaq.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi Regional Su Meliorasiya Xidmətinin sədri Zakir Quliyev çıxışında su resurslarından səmərəli istifadənin proqramın əsas prioritetlərindən biri olduğunu vurğuladı. Bildirdi ki, iqlim dəyişiklikləri fonunda müasir suvarma sistemlərinin tətbiqi artıq zərurətə çevrilib. "2026-2030-cu illər üzrə dövlət proqramının ana xəttini yüksək əlavə dəyər yaradan intensiv təsərrüfatçılığa keçid təşkil edir. Su itkilərinin azaldılması və su ehtiyatlarından səmərəli istifadə əsas vəzifələrdəndir". Əlavə etdi ki, proqrama əsasən, hazırda 130 min hektar olan müasir suvarma sistemləri ilə təmin edilmiş sahələrin 2030-cu ilədək 300 min hektara çatdırılması planlaşdırılır.

Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov rayonun aqrar potensialından danışdı, taxılçılıq, pambıqçılıq, heyvandarlıq və quşçuluqda mühüm nəticələr əldə olunduğunu qeyd etdi. O, su təminatının yaxşılaşdırılması, meliorasiya infrastrukturunun inkişafı və dayanıqlı kənd təsərrüfatının formalaşdırılmasını əsas vəzifələrdən biri kimi dəyərləndirdi.

Müşavirədə Beyləqandan "Qarabağ Toxum" MMC-nin direktoru Rəcəb Orucov, İmişlidən "R-Aqro" MMC-nin meneceri Pərviz Məmmədov, Saatlıdan "İD-Aqropark" MMC-nin direktoru Xanlar Həmidov, Sabirabaddan "Apeks Agro" MMC-nin direktoru Cavid Muxtarov çıxış edərək rəhbərlik etdikləri təsərrüfatların fəaliyyəti və perspektivləri barədə məlumat verdilər. Onlar dövlət proqramında nəzərdə tutulan yeni dəstək mexanizmlərinin istehsalın genişlənməsinə, məhsuldarlığın yüksəlməsinə və rəqabət qabiliyyətinin artmasına mühüm töhfə verəcəyini ümidvar olduqlarını dedilər.

Dövlət proqramının icrası üçün dövlət xətti ilə 2 milyard, özəl sektor tərəfindən isə 3 milyard manatdan çox investisiyanın cəlb olunması nəzərdə tutulur. Bu fakt aqrar sahənin dövlət siyasətində prioritet istiqamətlərdən biri olduğunu bir daha təsdiqləyir.

Saatlıda keçirilən regional müşavirə bir daha göstərdi ki, qarşıya qoyulan hədəflərə nail olmaq yalnız dövlət qurumlarının deyil, fermerlərin, sahibkarların, aqroparkların, emal müəssisələrinin və özəl sektorun birgə fəaliyyəti nəticəsində mümkün olacaq. 2026-2030-cu illər üçün dövlət proqramı da məhz bu məqsədə xidmət edir. Sənəd yalnız növbəti 5 ilin fəaliyyət proqramı deyil, ölkənin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, idxaldan asılılığın azaldılmasına, rəqabətqabiliyyətli və ixracyönümlü aqrar iqtisadiyyatın formalaşmasına hesablanmış yeni inkişaf strategiyasıdır. Azərbaycan kəndinin sabahı məhz bu strategiyanın uğurla reallaşmasından keçir. Çünki bərəkət təkcə torpaqda deyil, həm də düzgün müəyyən edilmiş dövlət siyasətindədir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Tovuz: uğurlar da var, həllini gözləyən məsələlər də

Mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə və həmin müşavirədə dövlət başçısının proqram xarakterli nitqi və yeni dövlət proqramının təsdiq olunması Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun əsas sütunu sayılan aqrar sahənin gələcək inkişaf perspektivini müəyyən etdi. Prezident çıxışında 2004-cü ildən başlanan regional inkişaf proqramlarının tarixi bəhrələrini xatırlatmaqla yanaşı, kənd təsərrüfatı məhsulları istehsalındakı irəliləyişlərin qənaətbəxş olmadığını vurğulayaraq sahənin köklü şəkildə yenidən qurulması üçün qarşıya mühüm vəzifələr qoydu.

Dövlət başçısı nitqinin əvvəlində son 20 ildə aqrar sahənin inkişafı üçün yaradılmış fundamental şəraiti diqqətə çatdıraraq qeyd etdi ki, dövlətin güclü iradəsi və sistemli proqramları olmasaydı, bu gün aqrar sahənin inkişafından danışmaq mümkün olmazdı. Lakin qlobal çağırışlar, regional iqlim dəyişikliyi və ərzaq inflyasiyası fonunda respublikamızda kənd təsərrüfatının daha çevik və səmərəli idarəetməyə ehtiyacı var.

Müşavirədə dövlət başçısının aqrar sektorun mövcud vəziyyəti, qarşıda duran strateji hədəflər və həlli vacib olan qlobal çağırışlar barədə söylədiyi fikirlər Azərbaycanın kənd təsərrüfatının yaxın gələcəkdə inkişaf dinamikasını müəyyən etdi. Dövlət başçısının vurğuladığı ən mühüm məsələlərdən biri də ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi oldu. Müasir dünyada baş verən geosiyasi dəyişikliklər fonunda əsas ərzaq məhsulları üzrə daxili istehsalın artırılması və idxaldan asılılığın minimuma endirilməsi ən vacib vəzifə kimi qarşıya qoyuldu.

Qlobal iqlim dəyişikliyinin yaratdığı su qıtlığı məsələsi müşavirənin əsas müzakirə mövzularından biri oldu. Qeyd edildi ki, ənənəvi suvarma üsullarından tamamilə imtina edilməsi, dövlət dəstəyi ilə təsərrüfatlarda modern damcı və yağışyağdırma sistemlərinin tətbiqinin genişləndirilməsi günün vacib tələbidir.

Müşavirədə aqrar sektora yönəldilən dövlət dəstəyi və subsidiyaların verilməsində tam şəffaflığın təmin olunması, eləcə də Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin daha da təkmilləşdirilməsinin vacibliyi də qeyd edildi. Bildirildi ki, subsidiyaların mexanizmi elə qurulmalıdır ki, yardım yalnız əkin sahələrinin ölçüsünə görə deyil, birbaşa əldə olunan son məhsulun həcminə və keyfiyyətinə görə verilsin. Söz yox ki, bu yanaşma fermerlər arasında sağlam rəqabət yaratmaqla məhsul istehsalını daha da stimullaşdıracaqdır.

Müşavirədə qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar Tovuz rayonunda olduq, rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədovla görüşdük. Gəlişimizin məqsədini biləndə dedi ki, Prezident İlham Əliyevin sədrliyi ilə ölkəmizdə kənd təsərrüfatı məsələlərinə



həsr olunmuş respublika müşavirəsi və dövlət başçısının ətraflı nitqi qarşımızda böyük vəzifələr qoyur: "İndi əsas işimiz bu vəzifələrin yerinə yetirilməsi üçün bütün qüvvələri səfərbər etməkdən ibarətdir".

Öyrəndik ki, əsasən kənd təsərrüfatı rayonu olan Tovuzda aqrar məhsulların istehsalında uzun illərdən bəri davam edən bir sıra problemlər həll olunmamış qalır. Subsidiyaların verilməsində hələ də rayonun aran zonası ilə dağlıq zonası arasında müəyyən fərq var. Dağlıq zonada əkilən məhsul suvarılmadığından həmin bölgələrə aran zonasına nisbətən az subsidiya verilir. Bundan başqa, suvarmada bəzi problemlər yaşanır. Suvarma Sistemləri İdarələri suyu Su İstifadəçiləri birliklərinə verirlər və onlar da suyu fermerlərə istədikləri şərtlərlə satırlar. Fermerlər deyirlər ki, yaxşı olardı həmin su elə suvarma sistemləri idarələrinin özündə qalsın və suyu özləri satsınlar.

Bundan başqa, bəzi torpaq sahibləri özlərinə məxsus sahədə artezian quyuları qazdırırlar. Əsas problem də elə bundan sonra başlayır. Əvvəla, elektrik şəbəkəsi artezianın işə salınması üçün külli miqdarda vəsait tələb edir. İkincisi, əkin sahələri suvarılarkən aylıq vəsait tələb olunur ki, onu da fermer ödəyir. Nəticədə məhsulun maya dəyəri xeyli yüksəlir. Əlacsız qalan fermer artezianın suyunu işlətməkdən imtina edir ki, bu da su probleminə gətirib çıxarır.

Tovuz Aqrar İnkişaf Mərkəzində də problemlər söylənildi. Mərkəzin direktoru Emin Eyvazovla söhbət zamanı məlum oldu ki, yetişdirilən məhsul üçün subsidiyalar gec, yəni məhsul yığımının sonunda verilir. Bu isə fermerlərin maliyyə problemi ilə üzləşməsi deməkdir. E.Eyvazov dedi ki, rayonlarda olan böyük təsərrüfatlar üçün kooperativlərin yaradılması yaxşı olardı. Belə halda məhsulun satışında da problem yaşanmaz. Söhbət zamanı onu da öyrəndik ki, gübrələrə ciddi nəzarət edilmir. Təkcə bu il gübrələrin qiyməti iki dəfəyədək bahalaşıb.

Fermerlər banklardan da gileylidirlər. Dedilər ki, kreditlər yüksək faizlə verilir. Məsələn, Düz Qırıxlı kəndindən olan fermer Ədalət Məhərrəmov 3 ildir götürdüyü kredit borcunu ödəyib başa çatdıra bilmir. O, 50 hektar özünün, 250 hektar isə icarəyə götürdüyü pay torpağında hər il taxıl, kartof, soğan yetişdirir. Ancaq əkindən götürdüyü gəlir banka faiz ödəməyə gedir.

Söz yox ki, bütün bunlar kənd təsərrüfatının inkişafına əngəl törədən amillərdir. Elə Prezidentin sədrliyi ilə keçirilən iclas, qəbul olunan dövlət proqramı və hazırda bölgələrdə keçirilən regional müşavirələrin də məqsədi həmin problemləri yaradan səbəbləri tapıb onların həllini sürətləndirməkdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Kənd təsərrüfatının inkişafına dair yeni dövlət proqramı həyata keçirilir

# Dövlət proqramı qarşıdakı 5 il üçün yeni imkanlar açır

## Ağcabədi fermerləri bu imkanlardan maksimum bəhrələnməkdə qərarlıdırlar

Ölkənin aqrar sektorunun inkişafında mütərəqqi texnologiyaya, kənd təsərrüfatı sahəsində qabaqcıl təcrübəyə, müasir dövrün elmi-texniki yeniliklərinə əsaslanan yeni dövrün başlandığı günümüzün reallığıdır.




Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələr bölgələrdə geniş müzakirə olunur, dövlət başçısının tapşırıq və tövsiyələrini həyata keçirmək üçün qüvvələr səfərbər edilir, görüləcək konkret tədbirlər müəyyənləşir. Qarabağ iqtisadi rayonu böyük potensiala malikdir. İyunun 16-da Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümovun iştirakı ilə Ağcabədidə keçirilən regional müşavirədə aidiyyəti dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələr, Ağcabədi, Ağdam, Bərdə, Füzuli və Tərtər rayonlarından olan fermer və sahibkarlar iştirak etmişlər.

Aqrar sektorun inkişaf istiqamətlərini yeni dövr üçün müəyyən edən yeni dövlət proqramında nəzərdə tutulan vəzifələrin müzakirəsinə həsr edilmiş regional müşavirənin məhz Ağcabədidə keçirilməsi təsadüfi deyildi. Ağcabədi ölkənin aqrar sektorunun inkişafında fərqlənən rayonlardan sayılır. Statistik məlumatlara kiçik bir nəzər salsaq, söylədiyimiz fikir öz təsdiqini tapmış olar. 2016-2025-ci illər ərzində rayon üzrə kənd təsərrüfatı məhsulları istehsalının ümumi həcmi 3,5 dəfə artmışdır. Həmin dövrdə taxıl əkinlərinin hər hektar üzrə orta məhsuldarlığı 26,4 faiz yüksəlmişdir. Müqayisə etdiyimiz illər ərzində heyvandarlıq məhsulları istehsalında artım 3,2 dəfə olmuşdur. Pambıq istehsalı 4,7, pambıq əkinlərinin hər hektara görə orta məhsuldarlığı 1,4 dəfə artmışdır. Heç şübhəsiz, qazanılmış bu nailiyyətlər ölkə iqtisadiyyatına verilən sanballı töhfə, kəndlinin güzəranını yaxşılaşdıran səbəbdir. Uğur dolu illər dövlətin güclü dəstəyindən yaradıcılıqla bəhrələnməyin, mövcud potensialdan, əmək ehtiyatlarından bacarıqla istifadənin, məqsədyönlü idarəetmənin, xalqa, dövlətə sədaqətli xidmətin məntiqi nəticəsidir.

İndi Ağcabədi kəndlisinin qarşısında yeni imkanlar açılıb. Taleyini torpağa, halal zəhmətə bağlayan, əməyi ilə bolluq, firavanlıq yaratmağa çalışan hər kəsə dövlətin qayğısı, diqqəti hər gün artır. Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov söhbətində qarşıdakı beş il ərzində görülməsi vacib olan tədbirlərə xüsusi önəm verdi:

- Böyük minnətdarlıqla, həm də qürurla qeyd etməliyik ki, Prezident İlham Əliyevin tutduğu yol, müəyyən etdiyi hədəflər xalqın və dövlətin mənafeyinə hesablanıb. Bunun ən doğru yol olduğunu böyük hakim olan zaman dəfələrlə təsdiq edib. Bu yol bizi 30 il həsrətini çəkdiyimiz Zəfərə qovuşdurdu. İşğal dövründə məhrumiyyətlər yaşamış soydaşlarımız bu yolla müharibənin xarabalıqları üzərində salınan yeni abad kənd və şəhərlərə, doğma yurd-yuvalarına qayıdırlar. Ən qürurvericisi isə odur ki, bu yol bizi dünya birliyinin inkişaf etmiş, aparıcı dövlətləri sırasında mövqeyə yaxınlaşdırır, söz sahibinə çevirir.

Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncamla ölkə iqtisadiyyatının mühüm sahəsi olan aqrar sektorda intensiv və dinamik inkişafın yeni istiqamətləri, xalq və dövlət üçün həyati əhəmiyyət kəsb edən yeni hədəflər göstərilib. İnkaredilməz reallıqdır ki, dövlət üzərinə düşən vəzifələri yüksək səviyyədə yerinə yetirir. Yetərli vəsait ayırır, konkret fəaliyyət proqramı verir, yol xəritəsi müəyyən edir, maddi-texniki təminat yaradır. Bizim üzərimizə düşən vəzifə isə yaradılan imkandan maksimum səmərəli istifadə etmək, kənd əhalisinin faydalı məşğulluğuna nail olmaq, hər qarış torpağın məhsuldarlığını artırmaq, kənd təsərrüfatı məhsullarının bolluğunu yaratmaqdır.

R.Hüseynov sözünə davam edərək dedi ki, iyunun 16-da rayonda keçirilən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın müzakirəsinə həsr olunmuş regional müşavirədə Prezidentin köməkçisi - Prezident Administrasiyasının şöbə müdiri Şahmar Mövsümov yeni dövlət proqramının qarşıdakı beş il ərzində hədəflərindən danışdı: "Bildirdi ki, bu proqram strateji sənəd olmaqla kənd təsərrüfatında məhsuldarlığın, gəlirliliyin və rəqabət qabiliyyətinin artırılmasını, emal imkanlarının və ixrac potensialının genişləndirilməsini, mövcud torpaq və su ehtiyatlarından daha səmərəli istifadəni nəzərdə tutur. Dövlət proqramının hədəf və vəzifələri məlumdur. Rayonumuz üçün geniş tədbirlər planı hazırlayırıq. Çalışırıq ki, torpaq mülkiyyətçilərinin gücünü səfərbər edib məlum hədəflərə yönəldək. Artıq kəndlərimizdə bir canlanma hiss olunur. Fermerlər, torpaq sahibləri qarşıdakı beş ildə də gerçək fədakarlıq nümunəsi göstərmək, dövlət proqramında qarşıya qoyulan vəzifələri, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrini layiqincə yerinə yetirmək əzmindədirlər".

Bu görüşdən aldığımız təəssüratla Ağcabədinin təsərrüfatlarını gəzib dolaşdıq. Pambıq tarlalarında becərmə yüksək aqrotexniki qaydalar əsasında davam edir, taxıl zəmilərində biçin gedirdi. Baramaçılar böyük zəhmət bahasına hasilə gətirdikləri məhsulu tədarük edirdilər. Bağlarda, tərəvəz sahələrində işlərin qızğın çağıydı. Qoyun-quzu sürüləri yaylaqlara qaldırılmışdı.

Bu gün Ağcabədi ölkənin böyük və aparıcı aqrar mərkəzlərindən biri kimi tanınır. Rayon iqtisadiyyatının əsasını pambıqçılıq, taxılçılıq təşkil edir. Keçən il rayonun təsərrüfatlarında 41305 ton pambıq istehsal olunmuş, hər hektarın orta məhsuldarlığı 34,9 sentner təşkil etmişdir. Dövlət fermerlərə 7,8 milyon manat həcmində subsidiya ödəmişdir. Rayonda fəaliyyət göstərən "Prime Cotton", "Azərpambıq", "P-Aqro" "Cotton Trade", "Eden Aqro" Məhdud Məsuliyyətli cəmiyyətləri ilə müqavilə bağlayan torpaq mülkiyyətçiləri cari ildə 8296,6 hektarda pambıq əkib becərirlər.

Bu günlər taxıl biçininin qızğın çağıdır. Təbiətin şıltaqlıqlarından ehtiyatlanan taxılçılar biçin kampaniyasını itkisiz başa vurmağa çalışırlar. Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzində fəaliyyət göstərən qərargahın səmərəli fəaliyyəti sayəsində yığım kampaniyası zamanı fermerlər problemlərlə üzləşmirlər.

Bu gün Ağcabədi həm də mütərəqqi texnologiyanın, qabaqcıl təcrübənin bacarıqla tətbiqi sayəsində yüksək nəticələr qazanılan ünvandır. "Ağcabədi Taxıl" Aqroparkı çox gəncdir. Bu yeni və mütərəqqi texnologiya ilə qurulan yeni təsərrüfat sahəsində atılan ilk addımlar uğurlarla müşayiət olunur. "Ağcabədi Taxıl" MMC 2500 hektar əraziyə malikdir. Ümumi ərazinin 1340 hektarından çox hissəsində müasir 23 pivot sistemi quraşdırılıb. Aqropark taxılçılıq, pambıqçılıq və bağçılıqla məşğuldur. Keçən il pambıq əkilmiş 1042 hektar sahənin orta məhsuldarlığı 37 sentnerə yaxın olmuşdur. Bu il isə 800 hektarda pambıq əkmişlər. 450 hektarda isə taxıl yetişdirilib. Zəmilərdə yüksək məhsuldarlığa malik 2 taxıl kombaynı işləyir. Arpa biçini başa çatıb. Məhsuldarlıq 55 sentnerdir. Buğda zəmilərində isə biçin davam edir. Məhsuldarlıq hələlik 50 sentner təşkil edir.

Aqroparkın ümumi ərazisinin xeyli hissəsində müasir texnologiyaya uyğun meyvə bağları salınıb. 150 hektar nektarin, 120 hektar badam bağı artıq bara düşüb. Ərazidə 100 hektardan çox xurma və 20 hektar heyva bağı salınıb. Hazırda bağlarda nektarin yığılır. Qonşu kəndlərdən məhsul yığımına 500 nəfərə yaxın işçi cəlb olunub. Onu da qeyd edək ki, aqroparkda daimi işçilərin sayı 180 nəfərdir.

Aqroparkın rəhbərliyi daim axtarışda, yenilik sorağındadır. "Ağcabədi Taxıl" MMC-nin direktoru Ceyhun Məmmədov:

- Müşavirədə aqrar sahəyə investisiya qoyuluşu ilə bağlı Prezident İlham Əliyevin sahibkarlara etdiyi çağırış və yeni dövlət proqramında müəyyən edilmiş hədəflər bizim üçün əsas fəaliyyət proqramıdır. Bununla bağlı biz pambıqçılığın sadəcə istehsalı deyil, həm də sənayeləşməsi üzrə yeni investisiya mərhələsinə start vermişik. 3,5 milyon manat sərmayə ilə quracağımız pambıq çiyidindən yağ istehsal edən müəssisə bu gün ən mühüm layihəmizdir. Aqroparkın gələcək investisiya planları çərçivəsində də mühüm layihələrimiz var. 2027-2030-cu illərdə mərhələli şəkildə 15 min tonluq soyuducu anbar kompleksinin yaradılmasını, saatda 1 ton gücündə meyvə qurudan sistemin, şoklama anbarının və badamqırma zavodunun qurulmasını planlaşdırmışıq. Daha 430 hektar sahədə intensiv meyvə bağları salmağı nəzərdə tuturuq. Ümumi investisiya portfeli 30,7 milyon manat olan aqroparkımız xammalı ölkə daxilində tam hazır sənaye məhsuluna çevirərək idxaldan asılılığı azaltmaqda qərarlıdır. Biz yaxşı dərk edirik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə təsdiq olunmuş yeni dövlət proqramı, sahibkarlar üçün açılan geniş imkanlar ölkəmizin aqrar-sənaye potensialını keyfiyyətcə yeni, innovativ inkişaf mərhələsinə daşıyır.

Məqsəd aydın, məram xoş olanda qurub-yaratmaq həvəsi güclənir, yeni hədəflərə aparan yol qısa və rahat olur. Bu gün Ağcabədidə rayon rəhbərlərindən tutmuş sıravi əmək adamlarına qədər hər kəs məqsəd aydınlığı ilə çalışır. Çalışırlar ki, dövlətimizin iqtisadi gücü daha da artsın, istehsal etdikləri bol məhsul qarşılığında ailələri daha firavan yaşasınlar.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin iyul ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 2 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 3, 10, 24 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 7, 21 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi** Səttarov Orxan Rəcəb oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 20 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 22 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 23 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 24 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 27 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 28 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 29 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 31 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 30 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır. Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Slovakiya Respublikasına işgüzar səfər edib

Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti slovakiyalı həmkarı Maroş Jilinkanın dəvəti ilə 22-23 iyun tarixlərdə Bratislava şəhərinə rəsmi səfər edib.



Slovakiya Respublikasının Baş Prokurorluğunda keçirilmiş görüşdə Maroş Jilinka qeyd edib ki, Azərbaycanın hüquq-mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi onlar üçün prioritet təşkil edir və mövcud əlaqələrin hazırkı səviyyəsi yüksək inkişaf dinamikası ilə xarakterizə olunur.

Ötən il Bakıya səfərini məmnunluqla xatırlayan ev sahibi cinayət təqibinin rəqəmsallaşması, prokurorluq orqanlarının fəaliyyətində müasir texnologiyaların tətbiqi, transmilli xarakterli, o cümlədən korrupsiya cinayətlərinin istintaqı sahəsində ölkəmizin təcrübəsinin onlar üçün xüsusi maraq kəsb etməsini bildirib.

Baş prokuror Kamran Əliyev dəvətə və göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək qeyd edib ki, qarşılıqlı dəstək və müxtəlif sahələrdə əməkdaşlıqla səciyyələnən güclü və dinamik tərəfdaşlıq kimi qiymətləndirilən Azərbaycan və Slovakiya arasında yüksəksəviyyəli münasibətlər xüsusilə son illərdə dövlət rəhbərlərinin səyləri nəticəsində daha da möhkəmlənib.

Kamran Əliyev qarşı tərəfə cənab Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı və xüsusi qayğısı ilə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verərək qeyd edib ki, Slovakiya şirkətlərinin Qarabağda bərpa işlərinə töhfə verməsi, həmçinin ticarət, texnologiya və sənaye kimi sahələrdə əlaqələrin dərinləşməsi fonunda prokurorluq orqanları arasında peşəkar əlaqələrin də gücləndirilməsi aktual əhəmiyyət kəsb edir. Bu konteksdə ötən il hər iki ölkənin Baş Prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumu əlaqələrin inkişafında yeni mərhələnin başlanğıcını təşkil edir.

Görüşdə cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə, o cümlədən transmilli cinayətlər və maliyyə cinayətlərinin istintaqı, ekstradisiya və cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahələrində praktiki əməkdaşlıq məsələləri, eləcə də qarşılıqlı təlim səfərlərinin təşkili və təcrübə mübadiləsi ətrafında fikir mübadiləsi aparılıb. Əməkdaşlıq əlaqələrinin inkişafını və daha öncə imzalanmış Anlaşma Memorandumunun icrasını təmin etmək məqsədilə müvafiq proqramın hazırlanması barədə ilkin razılıq əldə edilib.

Səfər çərçivəsində nümayəndə heyəti ilə Slovakiya Respublikası Məhkəmə Şurasının sədri xanım Marsela Kosova arasında da ikitərəfli görüş keçirilib. Görüşdə ölkələr arasında müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında dinamik inkişaf edən əlaqələrdən məmnunluq ifadə olunub. Xanım Sədr Slovak Respublikasının məhkəmə sisteminin strukturu və fəaliyyəti, həmçinin məhkəmə və prokurorluq orqanları arasında qarşılıqlı əlaqələr barədə geniş məlumat verib.

Öz növbəsində baş prokuror Kamran Əliyev ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları barədə qarşı tərəfə məlumat verib.

Tərəflər hüquqi sahədə əməkdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıb, eləcə də məhkəmələrin fəaliyyətinin təşkili, insan hüquqlarının qorunmasında müasir və effektiv yanaşmalarla bağlı praktiki suallar ətrafında müzakirə aparıb.

Görüşlərdə ölkəmizin Slovakiya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Vüsal Abdullayev də iştirak edib.

Səfər çərçivəsində həmçinin baş prokuror Kamran Əliyev ölkəmizin Slovakiya Respublikasındakı səfirliyini ziyarət edərək əməkdaşlar ilə görüşüb, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin və əməkdaşlığın gücləndirilməsi barədə barədə fikir mübadiləsi aparıb. Nümayəndə heyətinin səfəri başa çatıb.

# Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə Baş Prokurorluqda tədbir keçirilib

İyunun 23-də Baş Prokurorluqda Dövlət Qulluqçularının Peşə Bayramı Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə Baş Prokurorluğun rəhbərliyi, prokurorluq orqanlarının struktur qurumlarında çalışan və veteran dövlət qulluqçuları iştirak ediblər.

Tədbirdə çıxış edən baş prokurorun birinci müavini Elçin Məmmədov iştirakçıları peşə bayramı münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, günün əhəmiyyətindən bəhs edib. Bildirilib ki, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən iyunun 23-ü BMT-nin Dövlət Qulluğu Günü elan edilib. Bu nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 25 may 2006-cı il tarixli sərəncamı ilə 23 iyun tarixi ölkəmizdə Dövlət Qulluqçularının Peşə Bayramı Günü kimi təsis olunub.

Elçin Məmmədov dövlət qulluğu sisteminin formalaşması və inkişafında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərini qeyd edərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dövlət idarəetmə sistemində həyata keçirilən islahatların dövlət qulluğunun daha da təkmilləşdirilməsinə, şəffaflığın, peşəkarlığın və vətəndaş məmnunluğunun artırılmasına xidmət etdiyini bildirib. Daha sonra çıxış edən baş prokurorun müavini Heydər Məmmədov qeyd edib ki, prokurorluq orqanlarında fəaliyyət göstərən dövlət qulluqçuları üzərlərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirərək qurumun səmərəli fəaliyyətinin təmin edilməsinə, cinayətkarlığa qarşı mübarizəyə, insan hüquq və azadlıqlarının qorunmasına, sənəd dövriyyəsinin təşkilinə, insan resurslarının idarə olunmasına, maliyyə, informasiya texnologiyaları və digər istiqamətlər üzrə işlərin operativ və keyfiyyətli həyata keçirilməsinə mühüm töhfələr verirlər.

Çıxışlarda dövlət qulluqçularının peşəkar bilik və bacarıqlarının artırılmasının, etik davranış qaydalarına riayət edilməsinin və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinin əhəmiyyəti vurğulanıb. Qeyd olunub ki, ölkədə dövlət qulluqçularının sayı 27 min nəfərdir və onların 31,4 faizini qadınlar təşkil edir. Prokurorluq orqanlarında isə 624 nəfər dövlət qulluqçusu fəaliyyət göstərir ki, onların da 39,4 faizi qadınlardır. Eyni zamanda dövlət qulluqçularına göstərilən xüsusi diqqət və qayğıdan, habelə dövlət qulluğunun səmərəli və məsuliyyətli həyata keçirilməsi üçün müəyyən edilmiş prinsiplərdən bəhs olunub.

Tədbirdə çıxış edən dövlət qulluqçuları və veteranlar dövlət qulluğunun inkişafı, bu sahədə çalışan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi və peşə fəaliyyətləri üçün yaradılan əlverişli şəraitə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

Sonda xatirə fotosu çəkdirilib.

# Müasir Azərbaycan tarixinin daha bir əlamətdar səhifəsi

## Milli Məclisin 24 iyun 1993-cü il tarixli qərarı ilə Azərbaycan Prezidentinin səlahiyyəti Heydər Əliyevə keçmişdir



Ötən əsrin 90-cı illərinin əvvəllərində müstəqilliyini yenicə qazanmış respublikamız naşı iqtidarların ucbatından dərin siyasi, sosial-iqtisadi və hərbi böhranla üzləşmişdi. Xüsusən AXC-Müsavat cütlüyünün təcrübəsizliyi, xəyanəti, idarəçilikdən zərrə qədər xəbəri olmayan qrupların daxili mübarizəsi ölkəni xaos və anarxiya məngənəsinə salmışdı.

1993-cü ilin yayında daxili çəkişmələr pik həddə çatdı, Gəncədə qardaş qanı töküldü, ölkədə faktiki olaraq vətəndaş müharibəsi təhlükəsi yarandı. Digər tərəfdən isə torpaqlarımız işğal olunur, ölkənin cənub və şimalında separatizm meyilləri baş qaldırırdı. Bütün bunların nəticəsində Azərbaycan uçurumun kənarında idi, dövlət nəinki müstəqilliyini itirmək, hətta parçalanmaq və xəritədən silinmək təhlükəsi ilə qarşı-qarşıya idi.

Həmin dövrdə ölkəni xilas edə biləcək siyasi lider kimliyi isə bütün xalqımıza, o cümlədən iqtidarda təmsil olunanlara bəlli idi. Həmin lider görkəmli dövlət xadimi, siyasi dühası və mükəmməl idarəçilik bacarığı ilə tükənməz Vətən sevgisini öz şəxsiyyətində birləşdirən xalqın böyük oğlu Heydər Əliyev idi. Ona görə bütün nəzərlər Naxçıvana yönəlmişdi, xalq liderini təkidlə Bakıya, siyasi hakimiyyətə çağırırdı.

Vətənin taleyini öz taleyi kimi qəbul edən Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gələrək xilaskarlıq missiyasını öz üzərinə götürdü. Vətəndaş müharibəsinin qarşısını almağa nail olan Ulu Öndər 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və bu tarix dövlətçilik salnaməsinə Milli Qurtuluş Günü kimi həkk olundu.

Milli Qurtuluş Günündən cəmi 9 gün sonra - 24 iyun 1993-cü ildə Milli Məclisin qərarı ilə daha bir tarixi qərar qəbul edildi. Respublika Prezidentinin səlahiyyəti Ali Sovetin Sədri Heydər Əliyevə keçdi. Bu tarix müstəqil Azərbaycan dövlətinin iflasdan xilas olaraq yeni inkişaf, quruculuq və dirçəliş dönəminə qədəm qoyduğu ən əlamətdar günə çevrildi.

İyunun 24-dən Prezident səlahiyyətlərinin icrasına başlayan Ulu Öndər Heydər Əliyev respublikada milli birliyi təmin edən siyasi dəyişikliklərin əsasını qoydu. 4 iyun hadisələrindən və ölkədəki anarxiyadan sui-istifadə edərək respublikanı parçalamaq, şimalda və cənubda qondarma qurumlar yaratmaq istəyən anti-Azərbaycan dairələrin məkrli planları məhz Ulu Öndərin müdrikliyi və xalqın qətiyyəti sayəsində darmadağın edildi. Qeyri-qanuni silahlı dəstələr qısa müddətdə zərərsizləşdirildi, cinayətkarlığa qarşı barışmaz mübarizə elan olundu.

Ulu Öndərin həm Ali Sovetin Sədri, həm də prezident səlahiyyətlərini icra edən şəxs kimi ölkəyə rəhbərlik etdiyi qısa, lakin taleyüklü dövrdə dövlət idarəçiliyinə tamamilə yeni nəfəs gəldi. Ümummilli Lider ilk növbədə parlamentarizm ənənələrini azərbaycançılıq ruhunda kökündən dəyişdi. Əvvəllər əlbəyaxa döyüşlərin və vulqar leksikonun məkanı olan parlament Ulu Öndərin siyasi xarizması sayəsində sivil müzakirələrin ünvanına çevrildi. Ümummilli Lider iclasları idarəetmə üslubu ilə "mikrofon qəhrəmanları"na siyasi mədəniyyət və demokratiya dərsi keçdi.

Dövlət idarəetməsində təcrübəsi olmayan, təmsil edildikləri vəzifələrdə yalnız uğursuzluq gətirən naşı şəxslər peşəkar kadrlarla əvəzləndi. Azərbaycan xaosdan, anarxiyadan, hərc-mərclikdən, özbaşınalıqdan, parçalanma təhlükəsindən qurtuldu, sabitliyə, əmin-amanlığa qovuşdu. Təsadüfi deyil ki, 1993-cü il Azərbaycan tarixinə qurtuluş ili kimi daxil oldu.

24 iyun 1993-cü ildən sonra bərqərar olan ilkin sabitlik ölkənin qarşısında dayanan bütün siyasi prioritetlərin həyata vəsiqə alması üçün əlverişli şərait formalaşdırdı. 1993-cü il oktyabrın 3-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi isə Milli Qurtuluş salnaməsinin mühüm tarixi hadisəsi, müstəqil Azərbaycanın etibarlı gələcəyinə gedən yolun növbəti siyasi-hüquqi uğuru oldu. Heydər Əliyevin prezident seçkilərində böyük üstünlüklə qələbə qazanması xalqımızın Ulu Öndərin siyasi iradəsinə və xilaskarlıq missiyasına olan dərin inamından qaynaqlanırdı. Xalqı bilirdi ki, ölkəni ağır siyasi və hərbi böhranlardan xilas edən Heydər Əliyev həm də iqtisadi tənəzzülə son qoyacaq, Azərbaycanı inkişaf yoluna çıxaracaq.

Ümummilli Lider ölkəmizin xilasının həm də güclü iqtisadi təməllərə bağlı olduğunu önə çəkərək məşhur devizini elan etdi: "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Bu uzaqgörən yanaşmanın nəticəsi olaraq 20 sentyabr 1994-cü ildə tarixi "Əsrin müqaviləsi" imzalandı. Sonrakı illərdə tarixi neft və qaz kəmərlərinin təməlinin qoyulması ilə Azərbaycanın gələcək iqtisadi müstəqilliyi birdəfəlik təmin olundu.

Həyatının mənasını xalqına və dövlətinə xidmətdə görən Ulu Öndərin gördüyü əvəzsiz işlər Azərbaycanı çox qısa müddətdə beynəlxalq arenada böyük nüfuza və söz sahibinə malik bir ölkəyə çevirdi. Ümummilli Liderin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycan iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliləyən bir ölkə oldu.

Heydər Əliyevin xilaskarlıq missiyası müstəqilliyimizin əbədiliyini və dönməzliyini təmin etdi. Ümummilli Liderin layiqli siyasi davamçısı, Prezident İlham Əliyevin qətiyyətli siyasi kursu isə Azərbaycanı regionda lider dövlətə, dünyada söz sahibinə, orta gücə çevirdi. Ümummilli Liderin müəyyənləşdirdiyi, Prezident İlham Əliyevin layiqincə təmin etdiyi hərbi, iqtisadi və diplomatik prioritetlərin məntiqi nəticəsi olaraq Azərbaycan 44 günlük Vətən müharibəsində və antiterror tədbirlərində ərazi bütövlüyünü tam bərpa etdi. 1993-cü ilin iyunundan başlayan qurtuluş və dirçəliş yolu Şuşada, Xankəndidə dalğalanan bayrağımızla öz tarixi zirvəsinə ucaldı. Bu gün Azərbaycan təkcə öz torpaqlarını azad etmiş bir dövlət deyil, eyni zamanda Cənubi Qafqazın təhlükəsizlik qarantı, beynəlxalq dialoq məkanı və dünyanın enerji təhlükəsizliyində mühüm rol oynayan bir ölkədir.

Dünya bu gün Azərbaycanı modern, demokratik və hər sahədə nümunə yaradan bir dövlət kimi tanıyır. Bu dövlətin memarı 1993-cü ilin 9 iyunda Bakıya qayıdan, 15 iyunda qurtuluşa vəsilə olan, 24 iyunda isə prezident məsuliyyətini çiyinlərinə götürərək ölkəmizi qaranlıqdan aydınlığa çıxaran, tənəzzüldən tərəqqiyə aparan Ümummilli Lider Heydər Əliyevdir. Xalqımız Milli Qurtuluş salnaməsinin əlamətdar tarixi günlərində böyük şəxsiyyəti dərin hörmət, ehtiram və minnətdarlıqla yad edir. Nə yaxşı ki, bu müstəqil dövləti bizə bəxş edən Heydər Əliyev dühası olub və nə yaxşı ki, onun müqəddəs irsini eyni qətiyyətlə gələcəyə daşıyan Prezident İlham Əliyev kimi güclü Liderimiz var!

*Nəsib MƏHƏMMƏLİYEV,*
*Milli Məclisin deputatı*




# Strateji hədəflər və perspektivli gələcək

## Azərbaycan yeni dövrün çağırışlarına həm də şaxələndirilmiş, rəqabətədavamlı və ekoloji cəhətdən təmiz iqtisadi inkişaf strategiyası ilə cavab verir

Dünyada siyasi, iqtisadi və logistik arxitekturanın yenidən formalaşdığı bir dövrdə Azərbaycan sabitlik və inkişaf edən ölkə kimi öz mövqeyini möhkəmləndirir. Şübhəsiz, bu güclü mövqe və dayanıqlı inkişaf düşünülmüş siyasətin və uğurlu beynəlxalq əməkdaşlığın nəticəsidir.

Bu kontekstdə Prezident İlham Əliyevin İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılışındakı çıxışında ölkəmizin keçdiyi tarixi inkişaf yoluna nəzər salmaqla yanaşı, həm də yaxın gələcək üçün Azərbaycanın strateji hədəflərini dəqiq konturlarla diqqətə çatdırdı. Dövlətimizin başçısının bəyan etdiyi prioritetlər - iqtisadiyyatın şaxələndirilməsi, nəqliyyat-logistika potensialının ikiqat artırılması, milli ərzaq təhlükəsizliyinin təmini və "yaşıl enerji"yə keçid dəyişən qlobal nizama çevik şəkildə uyğunlaşmadır. Xüsusən ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra Azərbaycan daxil olduğu yeni strateji mərhələdə daha dayanıqlı, şaxələndirilmiş və qlobal təchizat zəncirində həlledici rol oynayan aparıcı dövlətə çevrilməyi hədəfləyir.

Prezident İlham Əliyev çıxışında Azərbaycanın neft ixracatçısı kimi rolundan bəhs etməklə yanaşı, ölkəmizin gələcəyinin hansı iqtisadi təməllər üzərində qurulacağına da diqqət çəkib. Vurğulanıb ki, Azərbaycan tükənən resurslardan əldə etdiyi imkanları məqsədyönlü şəkildə birbaşa qeyri-neft sektorunun şaxələndirilməsinə, qlobal miqyaslı infrastruktur layihələrinin icrasına və ölkənin beynəlxalq arenadakı nüfuzunun artırılmasına yönəldir: "Buna görə yaxşı investisiya mühiti, investisiyaların qorunması, qanunvericilik bazası və artıq həyata keçirilmiş layihələr bizə təkcə enerji sahəsinə yox, həm də qeyri-enerji sahəsinə investisiyaları cəlb etməyə imkan verir ki, bu da, yeri gəlmişkən, bizim prioritetlərimizdən biridir".

Uzun illər ərzində həyata keçirilən nəqliyyat və logistika layihələri Azərbaycanın strateji mövqeyini daha da gücləndirib. Azərbaycanın açıq dənizə birbaşa çıxışının olmaması ölkəmizin imkanlarını məhdudlaşdırmayıb. Əksinə, həyata keçirilən kommunikasiya layihələri bu coğrafi xüsusiyyəti strateji üstünlüyə çevirib və yeni, dayanıqlı iqtisadi modelin formalaşmasına zəmin yaradıb: "Biz bildiyiniz kimi, Azərbaycanı açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevirməyə, güclü nəqliyyat infrastrukturunu qurmaq üçün coğrafiyamızdan bünövrə kimi istifadə etməyə çalışdıq. Çünki əlbəttə, coğrafiya önəmlidir. Lakin onun üzərinə infrastrukturu əlavə etməsək, böyük bir çəkisi olmur".

Bu gün Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm tranzit ölkələrdən birinə çevrilib. Açıq dənizə birbaşa çıxışı olmayan Azərbaycan bu çatışmazlığı Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, modernləşdirilmiş dəmir yolları və magistrallarla əvəzləyib. Formalaşdırılan yeni nəqliyyat-kommunikasiya marşrutları Azərbaycanın geostrateji mövqeyini möhkəmləndirib və ölkəmizin regional, eləcə də qlobal iqtisadi inteqrasiyaya töhfə vermək imkanlarını əhəmiyyətli dərəcədə artırıb.

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycandan keçən dəhlizlər bir çox ölkələr üçün əlaqələndirilmiş və razılaşdırılmış nəqliyyat vətərini yaradır. Bu sahədə bir çox işlərin görüləcəyini bildirən dövlətimizin başçısı nəqliyyat-logistika sektorunun dövlətin prioritetlərindən biri olduğunu deyib: "Biz Azərbaycanı daha da güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik. Məqsədimiz Azərbaycan ərazisindən daşınan yüklərin həcmini iki dəfə artırmaqdır. Hazırda bu göstərici təxminən 14-15 milyon ton təşkil edir və biz bu rəqəmi ikiqat artırmağı hədəfləyirik. Əlbəttə, bunun hamısı yalnız bizdən asılı deyil. Bu, həm geosiyasi vəziyyətdən, həm də regiondakı ümumi şəraitdən asılı olacaq. Lakin bunlar bizim planlarımızdır".

Tranzit həcmlərin ikiqat artırılması hədəfi Azərbaycanın qlobal logistik rəqabətdə aktiv siyasət yürütdüyünü göstərir. Bununla dövlətimiz beynəlxalq ticarət zəncirinin formalaşmasına birbaşa təsir etmək imkanlarını nümayiş etdirir.

Logistik şəbəkələr və beynəlxalq bağlantıların inkişafı ilə paralel, daxili istehsalın, xüsusilə kənd təsərrüfatının gücləndirilməsi də dövlətimizin strateji xəttidir. Prezident İlham Əliyev çıxışında bu məqama diqqət çəkərək deyib: "Ərzaq təhlükəsizliyi ilə bağlı planlarımız da tam aydındır. Kənd təsərrüfatının inkişafına dair bu yaxınlarda qəbul edilmiş dövlət proqramı çərçivəsində əsas istehlak məhsulları üzrə maksimum özünütəminetmə səviyyəsinə nail olmağı planlaşdırırıq".

Nəzərə alaq ki, qlobal iqlim dəyişikliyi, su qıtlığı və tədarük böhranları fonunda ərzaq təhlükəsizliyi dövrün ən aktual məsələsidir. Azərbaycanın daxili ehtiyacını maksimum təminetmə strategiyası həm də xarici asılılığı və dünya bazarlarındakı qiymət artımlarının mənfi təsirini azaltmaq məqsədi güdür. Bu baxımdan, planlaşdırılan infrastruktur layihələri, xüsusən Qarabağ və Şərqi Zəngəzurun nəhəng aqrar potensialı kənd təsərrüfatının inkişafını yeni mərhələyə daşıyır.

Azərbaycan ərzaq təhlükəsizliyini təmin etməklə yanaşı, gələcəyin qlobal enerji xəritəsində öz rolunu tamamilə yeni müstəviyə keçirir. Dövlətimizin başçısının vurğuladığı kimi, bərpaolunan enerji böyük potensiala malik sahələrdən biridir: "Artıq beynəlxalq və yerli şirkətlərlə imzalanmış müqavilələr 2032-ci ilədək ölkəmizə 8 qiqavat həcmində günəş və külək enerjisi istehsal gücü qazandıracaq".

Hədəflənən bərpaolunan enerji gücü Azərbaycanı regionun "yaşıl enerji" mərkəzinə çevirir. Daxili tələbatdan qat-qat artıq istehsal olunacaq enerjinin Xəzər-Qara dəniz dəhlizi vasitəsilə Avropaya ixracı nəzərdə tutulur. Azərbaycan qlobal iqlim hədəflərinə real töhfə verməklə yanaşı, gələcəyin "yaşıl iqtisadiyyat"ında öz geostrateji dayaqlarını bərkidir.

Nəticə etibarı ilə Prezident İlham Əliyevin həyata keçirdiyi strategiya Azərbaycanın gələcək iqtisadi təhlükəsizlik xəritəsini müəyyənləşdirir. Qlobal miqyasda söz sahibi olan ölkəmiz Avropanın enerji təchizatında mühüm rol oynayır, Avrasiyanın əvəzedilməz nəqliyyat logistika mərkəzinə çevrilir. Azərbaycan postneft dövrünün çağırışlarına şaxələndirilmiş, rəqabətədavamlı və ekoloji cəhətdən təmiz iqtisadi inkişaf strategiyası ilə cavab verir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Azərbaycan-İİB əməkdaşlığı yeni layihələrlə inkişaf edir

Kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təminatı günümüzün müzakirə olunan aktual məsələlərindəndir. Bu il may ayının 25-də keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədən sonra iyunun 18-də Bakının evsahibliyi etdiyi İslam İnkişaf Bankı (İİB) Qrupunun 2026-cı il üzrə İllik Toplantılarında da bu mövzu aktual olub.

Prezident İlham Əliyev İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimindəki çıxışında bir daha bildirib ki, ərzaq təhlükəsizliyi ilə bağlı planlarımız tam aydındır. Kənd təsərrüfatının inkişafına dair qəbul edilmiş dövlət proqramı çərçivəsində əsas istehlak məhsulları üzrə maksimum özünütəminetmə səviyyəsinə nail olmaq planlaşdırılır. Suvarma sahəsində yeni uğurlara imza atılacaq. Bu istiqamətdə İslam İnkişaf Bankının da sanballı töhfələri gözlənilir. Belə ki, bu bankın su kanalları və su anbarlarının tikintisinə verdiyi dəstək sayəsində fermerlər su ehtiyatlarına daha geniş çıxış əldə edəcəklər. Bu da onlara istehsalda məhsuldarlığı əhəmiyyətli dərəcədə artırmağa imkan verəcək.

Ölkəmiz 1992-ci ildən İslam İnkişaf Bankının üzvüdür. İİB və Azərbaycan arasındakı əməkdaşlıq ölkənin iqtisadi inkişafı və beynəlxalq maliyyə institutları ilə əlaqələrin genişləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Belə ki, bu bank nəqliyyat, enerji və sosial infrastruktur layihələrinin maliyyələşməsində fəal iştirak edir. İİB ilə əməkdaşlıq ölkəmizin iqtisadi potensialının artırılması, regionlarda həyata keçirilən layihələrin maliyyələşməsi ilə yanaşı, əhalinin həyat keyfiyyətinin yüksəlməsinə öz töhfəsini verir.

Bundan əlavə, işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa işlərində İİB-lə əməkdaşlıq ölkəmiz üçün əlavə imkanlar yaradır. İslam İnkişaf Bankı Qrupunun Prezidenti Məhəmməd Süleyman Əl-Casir Bakıda keçirilən tədbirdə Qarabağın azad edilməsindən sonra qurumun Azərbaycanla əməkdaşlığının daha da genişləndiyini bildirib. Həmin bölgədə gedən bərpa və yenidənqurma işlərini yerində görmək üçün qrupun sədri hətta iki dəfə oraya səfər edib. O, baş verən inkişafın təsiredici olduğunu deyir: "İlk maliyyələşdirdiyimiz layihələrdən biri su və irriqasiya sistemi ilə bağlı idi. Hazırda isə 430 milyon dollardan çox böyük bir layihə üzərində çalışırıq. Bu layihə kanalların bərpasını və su itkisinin qarşısının alınmasını nəzərdə tutur".




İİB ilə əlaqələr başladığı vaxtdan indiyədək Azərbaycanda 1,3 milyard dollardan çox layihə olub. İndi isə avtomobil yolları, nəqliyyat infrastrukturu və hətta dəmir yolları da daxil olmaqla, digər sahələrə baxılır. İİB hökumətin yaxın gələcəkdə həyata keçirməyi planlaşdırdığı transformasiya xarakterli layihələri dəstəkləməyə hazır olduğunu bəyan edib. "Biz bu layihələrin həyata keçirilməsinə əlavə dəyər və təcrübə gətirə biləcəyimizə inanırıq", - deyə Məhəmməd Süleyman Əl-Casir bildirib.

Xatırladaq ki, mayın 7-də maliyyə naziri Sahil Babayev və həmin vaxt ölkəmizdə səfərdə olan İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Əl-Casirin rəhbərlik etdiyi nümayəndə heyəti arasında da görüş olmuşdu. Görüşdə Azərbaycan-İİB əməkdaşlığın cari vəziyyəti, mövcud layihələrin icra vəziyyəti və gələcək əməkdaşlıq istiqamətləri müzakirə edilmişdi. Keçiriləcək toplantıların uğurlu olacağına və əməkdaşlığın yeni mərhələyə yüksəlməsi üçün əhəmiyyətli platformaya çevriləcəyinə əminlik ifadə edilmiş, bank tərəfindən həmin vaxtadək ölkəmizdə 19 dövlət zəmanətli layihə üzrə 1 milyard dollardan artıq vəsait ayrıldığı diqqətə çatdırılmışdı.

Qeyd edək ki, Azərbaycan-İİB əməkdaşlığı çərçivəsində icra olunan "Qarabağ suvarma kanalının yenidən qurulması" layihəsi regionun dirçəldilməsi, sosial-iqtisadi inkişafı və ərzaq təhlükəsizliyinin təmin olunması baxımından mühüm rol oynayır. Eyni zamanda bu layihə çərçivəsində genişmiqyaslı suvarma infrastrukturunun yenilənməsinin regionlarda kənd təsərrüfatının inkişafına, su resurslarının səmərəli idarə olunmasına və məhsuldarlığın artırılmasına mühüm töhfə verəcək.

Sözügedən görüş zamanı Texniki Əməkdaşlıq Proqramı çərçivəsində bilik və təcrübə mübadiləsinin təşviqi, kənd təsərrüfatı, su idarəçiliyi və rəqəmsal transformasiya sahələrində texniki yardım və birgə təşəbbüslərin genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılmışdı. Bu çərçivədə su və meliorasiya, nəqliyyat infrastrukturunun inkişafı və dəmir yolu layihələri üzrə əməkdaşlıq imkanlarının genişləndirilməsinin vacibliyi vurğulanmışdı.

Son görüş və tədbirlər bir daha aydın göstərir ki, İslam İnkişaf Bankı Azərbaycan üçün etibarlı tərəfdaş olmaqdan qürur duyur.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Azərbaycan-Türkmənistan strateji tərəfdaşlığı Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının inkişafında mühüm rol oynayır

Türkmənistan və Azərbaycanı bir-birinə ortaq din, tarix, dil və mədəniyyət bağlayır. Bu amillər iki ölkə münasibətlərinin möhkəm təməl üzərində qurulmasına şərait yaradıb. Türkmənistan 1992-ci ildə Azərbaycanın müstəqilliyini tanıyıb və həmin dövrdən etibarən iki ölkə arasında münasibətlərin inkişafı istiqamətində mühüm addımlar atılıb.

Ümummilli Lider Heydər Əliyevin Türkmənistana səfərləri Azərbaycan-Türkmənistan münasibətlərinin formalaşmasında mühüm rol oynayıb. Ulu Öndər 1994-cü ildə Türkmənistanın Müstəqillik Günü münasibətilə keçirilən tədbirlərdə iştirak edib. Sonrakı dövrdə də dövlət başçılarının qarşılıqlı səfərləri baş tutub, beynəlxalq platformalarda birgə iştirak təmin olunub və siyasi dialoq davamlı şəkildə inkişaf edib.

**Milli Məclisin deputatı Azər BADAMOV** qəzetimizə müsahibəsində deyib ki, Türkmənistan Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunda fəaliyyət göstərərək müxtəlif məsələlərin müzakirəsində öz mövqeyini ifadə edib və təşkilatın inkişafına maraq göstərib. Bu baxımdan gələcəkdə Türkmənistanın Türk Dövlətləri Təşkilatına tamhüquqlu üzv kimi qoşulması ehtimalı kifayət qədər yüksəkdir. "Azərbaycan Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığını davamlı şəkildə genişləndirir. Son illər formalaşan C5+Azərbaycan formatı bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın bu platformada təmsil olunması Mərkəzi Asiya ölkələri, o cümlədən Türkmənistanla münasibətlərin inkişafına yeni impuls verib. Azərbaycan və Türkmənistan beynəlxalq təşkilatlar çərçivəsində həmişə bir-birinin mövqeyini dəstəkləyiblər. Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov işğaldan azad edilmiş Azərbaycan ərazilərinə səfər edib və Qəbələdə TDT tədbirində iştirakı çərçivəsində dövlət başçıları ilə bir yerdə Füzuli rayonunda Türkmənistan tərəfindən inşa edilən məscidin onlayn təməlqoyma mərasimində iştirak edib. Bu, iki ölkə arasında dostluğun və qardaşlığın növbəti təzahürü kimi qiymətləndirilə bilər", - deyə o əlavə edib.

Bu gün Azərbaycan-Türkmənistan münasibətləri siyasi müstəvidə yüksək səviyyədə inkişaf edir. İki ölkə arasında siyasi dialoq, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstək münasibətlərin əsas sütunlarından biridir. İqtisadi sahədə də əməkdaşlığın inkişafı üçün geniş hüquqi baza formalaşdırılıb. İndiyədək iki ölkə arasında 120-dən çox sənəd imzalanıb. Bu sənədlər arasında 2017-ci ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə xüsusi yer tutur və münasibətlərin strateji xarakter daşıdığını təsdiqləyir.

A.Badamov bildirib ki, Azərbaycan və Türkmənistan qədim İpək yolunun üzərində yerləşərək, "Şərq-Qərb" nəqliyyat dəhlizinin mühüm iştirakçıları kimi çıxış edirlər: "Türkmənistan Çindən və Mərkəzi Asiyadan gələn yüklərin Türkmənbaşı Beynəlxalq Dəniz Limanı vasitəsilə Azərbaycana çatdırılmasında mühüm rol oynayır. Bu yüklər Xəzər dənizi vasitəsilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanına gətirilir və daha sonra Bakı-Tbilisi-Qars dəmir yolu ilə Avropa istiqamətinə daşınır. Ticarət əlaqələrinə nəzər saldıqda da müsbət dinamikanı görmək mümkündür. Son illərdə iki ölkə arasında ticarət dövriyyəsində əhəmiyyətli artım qeydə alınıb. Bu artım nəqliyyat, logistika, enerji, sənaye və kənd təsərrüfatı sahələrində əməkdaşlığın genişlənməsi ilə bağlıdır".

Deputat qeyd edib ki, Türkmənistan dünyanın ən böyük təbii qaz ehtiyatlarına malik ölkələrindən biridir və bu baxımdan türkmən qazının Azərbaycan üzərindən Avropa bazarlarına çıxarılması məsələsi xüsusi aktuallıq daşıyır: "Hazırda Xəzər dənizinin dibi ilə mümkün qaz kəmərinin çəkilməsi və Türkmənistan qazının "Cənub qaz dəhlizi"nə inteqrasiyası perspektivləri müzakirə olunur. Layihənin reallaşması həm Avropanın enerji təhlükəsizliyinə töhfə verə, həm də



Azərbaycan və Türkmənistan üçün əlavə iqtisadi dividendlər yarada bilər. Bununla yanaşı, Azərbaycan, Türkmənistan və Qazaxıstan arasında Xəzər dənizi üzərindən "Yaşıl dəhliz" layihəsinin həyata keçirilməsi istiqamətində də işlər aparılır. Layihənin reallaşması nəticəsində "yaşıl enerji" ötürülməsi, rəqəmsal əlaqələrin genişləndirilməsi və fiber-optik xətlərin çəkilməsi mümkün olacaq".

A.Badamov vurğulayıb ki, Prezident Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi enerji və nəqliyyat sahələrində yeni layihələrin müzakirəsi baxımından xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda bu səfər Azərbaycan-Türkmənistan münasibətlərinin inkişafında yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər. Səfər çərçivəsində dövlət başçıları arasında keçirilən təkbətək və geniş tərkibdə görüşlər zamanı siyasi, iqtisadi, nəqliyyat, logistika, enerji, ticarət, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivləri ətraflı müzakirə olunub. Görüşlər göstərir ki, Azərbaycan və Türkmənistan qarşılıqlı etimada əsaslanan strateji tərəfdaşlıq münasibətlərinə malikdir və əməkdaşlığın daha da dərinləşdirilməsində maraqlıdırlar.

"Səfərin ən mühüm nəticələrindən biri müxtəlif sahələri əhatə edən yeni sənədlərin imzalanmasıdır. Bu sənədlər nəqliyyat-kommunikasiya əlaqələrinin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması, enerji əməkdaşlığının inkişaf etdirilməsi, investisiyaların təşviqi, gömrük və logistika sahələrində əməkdaşlığın gücləndirilməsi, eləcə də elm, təhsil və mədəniyyət sahələrində əlaqələrin dərinləşdirilməsi üçün yeni hüquqi baza formalaşdırır", - deyə o bildirib.

Deputat bu səfərin Xəzər dənizi hövzəsində əməkdaşlığın genişləndirilməsi, Orta dəhlizin inkişafı, Şərq-Qərb nəqliyyat marşrutunun potensialından daha səmərəli istifadə olunması və Türkmənistanın tranzit imkanlarının artırılması baxımından da xüsusi əhəmiyyət daşıdığını vurğulayıb: "Bütövlükdə, Prezident Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri və imzalanmış sənədlər Azərbaycan-Türkmənistan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsində inkişafını nümayiş etdirir. Bu sənədlər qarşıdakı dövrdə siyasi dialoqun daha da intensivləşməsinə, iqtisadi əlaqələrin genişlənməsinə, qarşılıqlı investisiyaların artmasına və regionda birgə təşəbbüslərin həyata keçirilməsinə mühüm zəmin yaradır".

A.Badamov bildirib ki, perspektivdə əsas istiqamətlərdən biri yeni tranzit imkanlarının formalaşdırılmasıdır: "Həm Azərbaycanın, həm də Türkmənistanın açıq dənizlərə birbaşa çıxışı yoxdur. Buna baxmayaraq, Azərbaycan öz əlverişli coğrafi mövqeyindən səmərəli istifadə edərək mühüm nəqliyyat və logistika mərkəzinə çevrilib. Bakı-Tbilisi-Qars dəmir yolu bu baxımdan mühüm əhəmiyyət daşıyır. Dəmir yolunun yükdaşıma qabiliyyətinin artırılması ilə bağlı həyata keçirilən layihələr Türkmənistan üçün Azərbaycan üzərindən tranzit imkanlarını daha da genişləndirir. Eyni zamanda Zəngəzur dəhlizinin açılması perspektivi Mərkəzi Asiya ölkələri üçün yeni logistika və nəqliyyat imkanları yaradır". Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükötürmə qabiliyyətinin artırılması istiqamətində həyata keçirilən layihələr də regional tranzit potensialını gücləndirir. Limanın imkanlarının genişləndirilməsi Türkmənistan və digər Mərkəzi Asiya ölkələrinin yüklərinin daha sürətli və effektiv daşınmasına şərait yaradacaq. Beləliklə, Türkmənistan məhsullarının Avropa bazarlarına çıxışı asanlaşır, eyni zamanda Çindən gələn yüklərin Azərbaycan üzərindən Qərb bazarlarına çatdırılması təmin edilir. Rəqəmsal dəhliz və "yaşıl enerji" layihələri də gələcək əməkdaşlığın əsas istiqamətlərindəndir. Bu layihələr iqtisadi əlaqələrin daha da dərinləşməsinə və regionun strateji əhəmiyyətinin artmasına xidmət edəcək".

Azərbaycan və Türkmənistan arasında diplomatik əlaqələrin inkişaf etdiyini söyləyən deputat əlavə edib ki, parlamentlərarası əlaqələr davamlı olaraq genişlənir, deputatların və nümayəndə heyətlərinin qarşılıqlı səfərləri parlament diplomatiyasının inkişafına mühüm töhfə verir. Azərbaycan son illərdə mühüm beynəlxalq tədbirlərə evsahibliyi edən ölkələrdən birinə çevrilib. Türkmənistan nümayəndə heyətləri də bu tədbirlərdə fəal iştirak edirlər. Bu, həm beynəlxalq müstəvidə əməkdaşlığın genişlənməsinə, həm də ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə xidmət edir. Bu gün Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında əməkdaşlıq nəticəsində Cənubi Qafqaz və Mərkəzi Asiyanın vahid geosiyasi və geoiqtisadi məkan kimi formalaşdığı müşahidə olunur. Azərbaycanla Mərkəzi Asiyanı Xəzər dənizi həm ayırır, həm də birləşdirir. Nəqliyyat, enerji və kommunikasiya layihələri bu birləşdirici rolu daha da gücləndirir.

"Azərbaycan-Türkmənistan münasibətləri bu gün strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji və nəqliyyat layihələri, mədəni-humanitar əlaqələr və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək münasibətlərin əsas istiqamətlərini təşkil edir. Mövcud dinamika göstərir ki, qarşıdakı illər iki ölkə arasında əməkdaşlıq daha da genişlənəcək və Azərbaycan-Türkmənistan strateji tərəfdaşlığı regionun inkişafına mühüm töhfələr verməkdə davam edəcək", - deyə deputat bildirib.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# "İmzalanan sənədlər Azərbaycan-Türkmənistan əlaqələrini yeni səviyyəyə qaldırır"

Xəbər verildiyi kimi, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana dövlət səfəri çərçivəsində Prezident İlham Əliyevlə həm təkbətək, həm də geniş tərkibdə görüşləri keçirilib. İki ölkə arasında bir sıra sahələrdə sənədlər imzalanıb və prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər. Eyni zamanda Prezident İlham Əliyev "Dostluq" neftdaşıyan tankerini Türkmənistana hədiyyə edib. Tankerin onlayn formatda bağışlanma mərasimi baş tutub.



**Milli Məclisin deputatı Hikmət BABAOĞLU** qəzetimizə açıqlamasında deyib ki, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun Azərbaycana səfəri, Prezident İlham Əliyevlə görüşü və imzalanan sənədlər iki ölkə münasibətlərində tarixi hadisə kimi yadda qalacaq: "Çünki bu görüş və imzalanan sənədlər Azərbaycan və Türkmənistan arasında əlaqələri tamamilə yeni bir səviyyəyə qaldırdı. Əlbəttə, tarixən eyni etnik kökdən, dildən, eyni mədəniyyətdən gələn xalqların münasibətlərinin indiki mürəkkəb beynəlxalq əlaqələr sistemində hüquqi platformaya transfer edilməsi, xalqlarımızın ortaq rifahı üçün iqtisadi əlaqələrin dərinləşdirilməsi kimi imkanların yaradılması, şübhəsiz ki, hər iki xalqa töhfə verəcək".

H.Babaoğlu qeyd edib ki, imzalanan sənədlər enerji sahəsində əməkdaşlıqdan tutmuş bank-maliyyə, səhiyyə, kommunikasiya əlaqələrinə qədər çoxvektorlu seqmentlərdən ibarətdir: "Bu isə onu göstərir ki, Xəzər hövzəsində şərq-qərb vektorunda yeni iqtisadi əməkdaşlığın təməli qoyulur. Bu, eyni zamanda Xəzər hövzəsi ölkələrində iqtisadi əməkdaşlığın şaxələnməsi üçün yeni imkanlar yaradır".

Həmsöhbətimiz xatırladıb ki, təqribən bir il əvvəl Türkmənistanda Özbəkistan-Türkmənistan-Azərbaycan prezidentlərinin görüşü baş tutmuş, Trans-Xəzər marşrutunun aktuallaşması və Türkmənistanın həm də tranzit ölkəyə çevrilməsi ilə bağlı yeni imkanlar müzakirə olunmuşdur: "Hazırda dünyada baş verən mürəkkəb geoiqtisadi proseslər kontekstində enerjinin əhəmiyyəti artıb. Türkmənistan böyük enerji resurslarına malikdir və uzun illərdir ki, Avropa bazarına çıxmaq üçün yollar axtarır. Hazırda belə bir fürsət yaranıb. Üstəlik, Türküstan coğrafiyasının digər iqtisadi əlaqələri üçün Azərbaycan hazırda Zəngəzur dəhlizi - TRIPP marşrutu üzərində işləyir ki, bu da Türkmənistanın Avropaya açılan ən qısa və rahat qapısı olacaq. Bütün bunlar nəticə etibarilə hər iki ölkənin iqtisadi təhlükəsizlik maraqlarına da xidmət edir".

Deputat məsələnin mənəvi tərəflərindən söz açaraq bildirib ki, ötən il Türkmənistanın Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov və Azərbaycan Prezidentinin bir-birinə at bağışlaması ilə başlayan bu mənəvi münasibətlər bu gün hüquqi müstəvidə çoxsaylı sənədlərdə öz əksini tapır: "Eyni zamanda Türkmənistan Füzuli şəhərinə məscid hədiyyə edib, Azərbaycan isə Türkmənistana neft daşıyan tanker bağışlayıb". H.Babaoğlunun fikrincə, tankerin bağışlanması iki ölkə arasında nəqliyyat körpüsü deməkdir, həmçinin bu yolun böyük perspektivini özündə simvolizə edən hədiyyədir.

***Ə.QARDAŞXANOVA, "Azərbaycan"***

**Bu gün Maşınqayırma Sənayesi İşçilərinin peşə bayramıdır**

# Zəngin ənənə və güclü istehsal potensialı

## Azərbaycan maşınqayırma sənayesini qısaca belə təqdim etmək olar

Maşınqayırma sənayesinə həm çoxsaylı, həm də vacib sahələr - dəzgahqayırma, cihazqayırma, traktor və avtomobil istehsalı, gəmiqayırma, təyyarəqayırma, kənd təsərrüfatı maşınlarının hazırlanması, eləcə də elektrotexnika, radiotexnika və avtomatika avadanlıqlarının istehsalı daxildir. Bu sahədə çalışan minlərlə mühəndis, texnik və fəhlənin səyi sayəsində maşınqayırma sənayesi daim yenilənir və inkişaf edir, eləcə də daxili bazarın tələbatını ödəyir, digər sahələrin modernləşməsinə birbaşa təsir göstərir.

Qlobal təcrübə göstərir ki, sənaye istehsalının inkişaf səviyyəsi ilə maşınqayırma sektorunun gücü arasında birbaşa əlaqə mövcuddur. Yüksək inkişaf etmiş ölkələrdə bu sahə ümumi sənaye istehsalının əsas hissəsini təşkil edir və ixrac strukturunda mühüm paya sahibdir. Məsələn, Almaniya, Yaponiya və Cənubi Koreya kimi ölkələrdə maşınqayırma sənayesi ümumi sənaye istehsalının əhəmiyyətli hissəsini təşkil edir və ixracın əsas dayaqlarından biri hesab olunur.

Bu baxımdan Azərbaycanda da maşınqayırma sənayesinin formalaşması və inkişafı ölkənin sənaye tarixində mühüm yer tutur. Onun təməli XIX əsrin ortalarında neft sənayesinin sürətli inkişafı ilə qoyulub. 1848-ci ildə dünyada ilk dəfə olaraq Bakıda neftin sənaye üsulu ilə hasilatına başlanılması, 10 il sonra ilk metal emalı zavodunun inşa edilməsi və 1859-cu ildə dünyanın ilk neftayırma zavodunun istifadəyə verilməsi ölkədə sənaye infrastrukturunun yaranmasına güclü təkan verdi. Neft hasilatı, emalı və gəmiçiliyin inkişafı ilə əlaqədar olaraq bu sahələrə xidmət edən maşınqayırma və metal emalı müəssisələri formalaşmağa başladı. XX əsrin əvvəllərində Bakı artıq regionun mühüm sənaye mərkəzlərindən birinə çevrilmişdi. 1911-1913-cü illərdə şəhərdə 12 maşınqayırma zavodu fəaliyyət göstərirdi. Birinci Dünya müharibəsinin başladığı dövrdə isə Bakı və ətraf ərazilərdə 127 mexaniki və metal emalı müəssisəsi mövcud idi. Həmin müəssisələrdə 8 mindən artıq işçi çalışırdı ki, bu da sənaye potensialının miqyasını bariz şəkildə ortaya qoyurdu.

Əslində, Azərbaycan maşınqayırmasının inkişafı bilavasitə neft sənayesinin tələbatı ilə bağlı olub. İlk dövrlərdə xaricdən gətirilən avadanlıqlar Nobel qardaşlarının, Rotşildlərin, Hacı Zeynalabdin Tağıyevin, Şəmsi Əsədullayevin, Murtuza Muxtarovun və digər sahibkarların emalatxanalarında təmir olunur, təkmilləşdirilir və istismar üçün hazırlanırdı. Məhz həmin emalatxanalar sonralar ölkənin ilk maşınqayırma müəssisələrinin əsasını təşkil edərək, Azərbaycanın sənaye tarixində yeni bir mərhələnin başlanğıcını qoydu. Beləliklə, ölkədə neft-maşınqayırma sənayesi formalaşaraq iqtisadiyyatın aparıcı istiqamətləri sırasında yer aldı.

Məhz bu tarixi və sənaye bazası üzərində formalaşan Azərbaycan neft maşınqayırması sonrakı dövrlərdə ölkənin ən mühüm sənaye sahələrindən birinə çevrildi. Neft sənayesinin inkişafı ilə paralel olaraq maşınqayırma müəssisələrinin istehsal imkanları genişləndi, yeni texnologiyalar tətbiq olundu və tədricən regional əhəmiyyət daşıyan sənaye kompleksi kimi diqqət çəkməyə başladı. Uzun illər Azərbaycanda istehsal olunan neft maşınqayırması məhsullarının əsas hissəsi "Azneftkimyamaş" sisteminə daxil olan müəssisələr tərəfindən buraxıldı. Keçmiş SSRİ-nin bütün neftçıxarma regionlarında istifadə edilən neft və qaz hasilatı, eləcə də quyuların cari və əsaslı təmiri üçün nəzərdə tutulmuş avadanlıqların təxminən 70 faizi Azərbaycanda istehsal edilirdi. Respublikada istehsal olunan neftmədən avadanlıqları və texniki vasitələr yalnız ittifaq daxilinə deyil, dünyanın 35-dən çox ölkəsinə ixrac olunurdu. Bu göstəricilər Azərbaycanın həmin dövrdə neft ma-



şınqayırması sahəsində ixtisaslaşmış mühüm istehsal mərkəzlərindən biri statusunu təsdiqləyirdi.

Azərbaycan neft-qaz maşınqayırma sənayesinin təşkilatlanmış inkişaf mərhələsi 1935-ci ildən başlanır. Həmin il neft-mədən avadanlıqları və alətlərinin istehsalı, eləcə də təmiri ilə məşğul olan müəssisələrin birləşdirilməsi nəticəsində "Azneftmaş" yaradıldı. Vaxt keçdikcə qurum inkişaf edərək, Ümumittifaq Sənaye Birliyi "Soyuzneftmaş"ın tərkibində fəaliyyət göstərib, daha sonra isə "Azneftkimyamaş" Dövlət Şirkətinə çevrilib. Müstəqillik dövründə də neft maşınqayırması sənayesinin inkişafı dövlət siyasətinin mühüm istiqamətlərindən biri olub. 2001-ci ildə "Azneftkimyamaş" Dövlət Şirkətinin bazasında eyniadlı Açıq Səhmdar Cəmiyyəti (ASC) yaradılıb, beləliklə də bu sahənin inkişafında yeni mərhələnin əsası qoyulub. Hazırda cəmiyyətin müəssisələrində geoloji-kəşfiyyat, qazma, neft və qaz hasilatı, quyuların təmiri, mədənlərin abadlaşdırılması, eləcə də kimya sənayesi və kənd təsərrüfatı üçün yüzlərlə adda maşın, avadanlıq, alət və ehtiyat hissələri istehsal edilir.

"Azneftkimyamaş" ASC-nin istehsal və elmi-texniki potensialının əsasını onun tərkibində fəaliyyət göstərən ixtisaslaşmış zavodlar, elmi-tədqiqat və layihə-konstruktor müəssisələri təşkil edir. Cəmiyyətin strukturuna daxil olan Bakı Neft Maşınqayırma Zavodu, "Bakı Fəhləsi" Maşınqayırma Zavodu, Suraxanı, Zabrat, Balaxanı və Səbail maşınqayırma zavodları, eləcə də Bakı Neftqazmədən Avadanlıqları Zavodu və B. Sərdarov adına Maşınqayırma Zavodu neft-qaz sənayesi üçün müxtəlif təyinatlı avadanlıqların istehsalında mühüm rol oynayır.

Azərbaycanda neft-qaz sənayesinin inkişafında mühüm rol oynayan strateji müəssisələrdən biri də Bakı Dərin Özüllər Zavodudur. 1978-ci ildə təməli qoyulan və 1984-cü ildə istismara verilən zavod Xəzər dənizində iri neft-qaz layihələrinin həyata keçirilməsi üçün zəruri olan dərin dəniz özüllərinin istehsalı üzrə ixtisaslaşıb. Müasir istehsal imkanlarına malik olan müəssisə müxtəlif dərinliklərdə istifadə edilən dəniz platformalarının və iri metal konstruksiyaların hazırlanmasını həyata keçirir. Zavodun istehsal etdiyi ilk stasionar dəniz platforması 1985-ci ildə "Günəşli" yatağında quraşdırılıb. Sonrakı illərdə müəssisə onlarla dəniz platforması və müxtəlif təyinatlı metal konstruksiyalar istehsal edib. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə neft strategiyasında yeni mərhələ başlandı və Bakı Dərin Özüllər Zavodu Xəzərin Azərbaycan sektorunda həyata keçirilən bütün iri neft-qaz layihələrinin icrasında fəal iştirak edən əsas sənaye müəssisələrindən birinə çevrildi. Bu gün də müəssisə ölkənin enerji və sənaye potensialının möhkəmləndirilməsində mühüm rol oynamaqdadır.

Azərbaycan maşınqayırma sənayesinin keçdiyi zəngin inkişaf yolu, əldə olunan uğurlar və formalaşmış istehsal ənənələri bu sahədə çalışan insanların əməyi ilə sıx bağlıdır. Məhz onların zəhməti sayəsində maşınqayırma regional sənayenin aparıcı istiqamətlərindən birinə çevrilib. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin 2012-ci il tarixli sərəncamı ilə hər il iyun ayının 24-ü Maşınqayırma Sənayesi İşçiləri Günü kimi qeyd olunur. Peşə bayramının təsis edilməsi maşınqayırma sənayesində çalışan insanların əməyinə verilən yüksək dəyərin ifadəsi olmaqla yanaşı, bu strateji sahənin ölkənin iqtisadi inkişafında oynadığı mühüm rolun dövlət səviyyəsində təsdiqidir.

Hazırda Azərbaycan maşınqayırma sənayesi zəngin ənənələri və güclü istehsal potensialı ilə ölkə iqtisadiyyatının mühüm dayaqlarından biri olaraq qalır. Müasir texnologiyaların tətbiqi, yerli istehsalın genişləndirilməsi və sənayenin rəqabət qabiliyyətinin artırılması istiqamətində həyata keçirilən tədbirlər bu sahənin gələcək inkişafı üçün yeni imkanlar yaradır.

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***



# Qlobal qarşıdurmalar fonunda sabit və yüksələn Azərbaycan

**XXI əsrin üçüncü onilliyi, şübhəsiz ki, dünyanın ən mürəkkəb və gərgin dövrlərindən biri kimi tarixə düşəcək. Bu mərhələ həm də beynəlxalq münasibətlər sistemində dərin transformasiyalar dövrü kimi xarakterizə olunur. Əgər ötən əsrin sonlarında qloballaşmanın genişlənməsi, iqtisadi inteqrasiya və beynəlxalq əməkdaşlığın güclənməsi dünya siyasətinin əsas tendensiyası hesab olunurdusa, bu gün tamamilə fərqli mənzərənin şahidiyik.**

Geosiyasi rəqabətin kəskinləşməsi, regional münaqişələrin genişlənməsi, enerji və ərzaq təhlükəsizliyi problemləri, iqlim dəyişiklikləri, kibertəhlükələr və qlobal iqtisadi qeyri-müəyyənlik beynəlxalq münasibətlərin gündəliyini müəyyən edən əsas amillərə çevrilib. Başqa sözlə, dünya yeni güc balansının formalaşdığı mürəkkəb mərhələyə daxil olub. Ənənəvi siyasi və iqtisadi mərkəzlər arasında rəqabət getdikcə dərinləşir, beynəlxalq təşkilatların effektivliyi ilə bağlı suallar artır, beynəlxalq hüququn tətbiqində ikili yanaşmalar daha açıq hiss olunur. Dövlətlər təkcə hərbi potensialını deyil, diplomatik çevikliyini, iqtisadi dayanıqlığını, enerji və logistika imkanlarını da milli gücün əsas elementləri kimi qiymətləndirirlər.

Belə mürəkkəb şəraitdə Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsi xüsusi diqqət çəkir. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin uğurları sayəsində son illər ölkənin qlobal və regional proseslərdə oynadığı rol genişlənmiş, ölkəmiz beynəlxalq əməkdaşlığın etibarlı tərəfdaşı, enerji təhlükəsizliyinin mühüm iştirakçısı, Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biri və müxtəlif siyasi platformalarda dialoq təşəbbüslərinin müəllifi kimi tanınmağa başlamışdır.

Bu uğurlar təsadüfi deyil, onların əsasında cənab İlham Əliyevin uzun illər ərzində həyata keçirdiyi düşünülmüş dövlət siyasəti, milli maraqlara əsaslanan xarici siyasət strategiyası, iqtisadi dayanıqlığın gücləndirilməsi, beynəlxalq öhdəliklərə sadiqlik və praqmatik diplomatiya durur. Bu gün Azərbaycanın beynəlxalq nüfuzu artıq yalnız Cənubi Qafqaz kontekstində deyil, Avrasiya məkanının geosiyasi inkişafında mühüm faktor kimi qiymətləndirilir.

## Yeni dünya nizamı və Azərbaycan diplomatiyası

Hazırda dünya siyasətinin əsas xüsusiyyəti müəyyənsizlikdir. Rusiya-Ukrayna müharibəsi Avropada təhlükəsizlik sistemini kökündən dəyişib. Yaxın Şərqdə uzun müddət davam etmiş silahlı qarşıdurmalar regionun siyasi xəritəsinə ciddi təsir göstərib. ABŞ və Çin arasında aparılan strateji rəqabət texnologiya, ticarət və təhlükəsizlik sahələrində yeni qarşıdurma mühiti yaradıb. Afrika və Latın Amerikasında siyasi sabitsizlik problemləri, enerji bazarlarında dalğalanmalar, qlobal inflyasiya və logistika zəncirlərinin pozulması dünya iqtisadiyyatına ciddi təsir edir.

Belə şəraitdə dövlətlər üçün əsas vəzifə təhlükəsizliyi təmin etməklə bərabər, həm də dəyişən geosiyasi mühitə uyğunlaşmaqdır. Məhz buna görə müasir dövrdə dövlətin gücü hərbi potensialı ilə yanaşı, diplomatik nüfuzu, iqtisadi dayanıqlığı, enerji və nəqliyyat imkanları, beynəlxalq etibarlığı və qlobal proseslərə təsir bacarığı ilə müəyyənləşir. Azərbaycan da son illər məhz bu istiqamətlər üzrə əhəmiyyətli üstünlüklər formalaşdırmağa nail olub.

Azərbaycanın beynəlxalq nüfuzunun əsasını təşkil edən amillərdən biri müstəqil xarici siyasət kursudur. Ümummilli Lider Heydər Əliyevin müstəqilliyimizin ilk illərindən başlayaraq formalaşdırdığı bu siyasət sonrakı dövrdə də sistemli davam etdi. Bu, ölkəyə fərqli siyasi və iqtisadi platformalarla əməkdaşlıq etməyə, eyni zamanda milli maraqları prioritetdə saxlamağa imkan verir. Belə siyasət beynəlxalq münasibətlərdə çeviklik yaradır və ölkənin manevr imkanlarını artırır.

Məlumdur ki, müasir beynəlxalq münasibətlərdə balanslı siyasət aparmaq heç də asan deyil. Qlobal qarşıdurmaların dərinləşdiyi bir vaxtda müxtəlif güc mərkəzləri ilə eyni zamanda əməkdaşlıq qurmaq çox böyük diplomatik məharət tələb edir. Azərbaycanın son illər qazandığı nüfuz isə məhz bu praqmatik siyasətin nəticəsi kimi qiymətləndirilə bilər.

## Tarixi Zəfərin yüksəltdiyi nüfuz

2020-ci ildə qazandığımız tarixi Zəfərimizin hərbi-siyasi nəticələri, regionda yaratdığı yeni reallıqlar Azərbaycanın beynəlxalq mövqeyinə də mühüm təsir göstərdi. Ərazi bütövlüyümüz bərpa olundu, ölkəmizin suverenliyi tam təmin edildi. Bu Zəfər təkcə regionun geosiyasi mənzərəsini dəyişmədi, eyni zamanda Azərbaycanın dövlət institutlarının gücünü, iqtisadi potensialını, hərbi hazırlığını və siyasi iradəsini nümayiş etdirdi. Sonrakı mərhələdə azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma proqramlarının həyata keçirilməsi, müasir şəhərsalma konsepsiyalarının tətbiqi, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin reallaşdırılması ölkənin inkişaf modelinin yeni mərhələsini formalaşdırdı.

Azərbaycanın beynəlxalq nüfuzunun yüksəlməsində ölkəmizin böyük bir coğrafiyada enerji təhlükəsizliyinin əsas tərəfdaşlarından biri olması da mühüm rol oynayır. Məlumdur ki, dünyada enerji təhlükəsizliyi məsələsi son illərdə heç vaxt olmadığı qədər aktuallaşıb. Rusiya enerji daşıyıcılarından imtina Avropada etibarlı enerji təchizatçılarına tələbatı artırıb. Azərbaycan isə uzun illər ərzində formalaşdırdığı enerji strategiyası sayəsində bu sahədə mühüm tərəfdaş statusu qazanıb. Ölkəmizin əsas tərəf kimi iştirak etdiyi "Cənub qaz dəhlizi" artıq yalnız iqtisadi layihə olmaqla məhdudlaşmayıb Avropanın enerji təhlükəsizliyinin mühüm elementlərindən birinə çevrilib. Azərbaycan qazının yeni bazarlara çıxarılması, enerji əməkdaşlığının genişləndirilməsi və uzunmüddətli müqavilələrin imzalanması ölkəmizin beynəlxalq nüfuzunu daha da gücləndirir.

Amma Azərbaycanın enerji siyasəti artıq yalnız neft və qaz ixracı ilə çərçivələnmir. Ölkəmiz "yaşıl enerji" sahəsində də mühüm layihələr həyata keçirir. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonası elan olunması, Xəzər dənizində külək enerjisi layihələri, bərpa olunan enerji istehsalının artırılması Azərbaycanın gələcək enerji strategiyasının əsas istiqamətlərini müəyyənləşdirir.

## Azərbaycanın geosiyasi üstünlüyü və qlobal tədbirlərə evsahibliyi

Dünya iqtisadiyyatında logistika ən böyük strateji üstünlüklərdəndir. Son illər Şərqlə Qərb arasında yükdaşımaların marşrutları dəyişir. Bu dəyişikliklər fonunda Orta dəhlizin əhəmiyyəti xeyli dərəcədə artıb. Azərbaycan isə bu marşrutun əsas iştirakçılarındandır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu, müasir avtomobil yolları və rəqəmsal logistika infrastrukturu ölkəmizi Avrasiyanın nəqliyyat qovşaqlarından birinə çevirib. Bu isə Azərbaycanın yalnız tranzit ölkəsi deyil, həm də regional iqtisadi inteqrasiyanın aparıcı iştirakçılarından biri olduğunu göstərir.

Azərbaycan həm də beynəlxalq dialoq məkanıdır. Son illər Bakıda keçirilən beynəlxalq tədbirlərin sayı və miqyası əhəmiyyətli dərəcədə artıb. Paytaxtda ardıcıl olaraq enerji forumları, qlobal humanitar tədbirlər, müxtəlif zirvə görüşləri, COP29, WUF13, İslam İnkişaf Bankı Qrupunun illik toplantıları və s. bu kimi qlobal tədbirlər keçirilir. Bu tədbirlər dövlətimizin beynəlxalq etimad qazandığını göstərən mühüm göstəricilərdir. Müxtəlif siyasi sistemlərə malik ölkələrin Bakıda eyni masa arxasında əyləşməsi Azərbaycanın dialoq platforması kimi qəbul edilməsinin göstəricisidir.

Müasir beynəlxalq münasibətlərdə etimad ən qiymətli siyasi kapital hesab olunur. Azərbaycan məhz bu kapitalı formalaşdırmağa nail olub. Eyni zamanda nəzərə almalıyıq ki, çağdaş dünyamızda dövlətlərin beynəlxalq nüfuzu yalnız iqtisadi və hərbi güclə müəyyən edilmir. Mədəniyyət, təhsil, idman, humanitar əməkdaşlıq, multikulturalizm, dinlərarası dialoq və s. kimi amillər dövlətin yumşaq gücünü formalaşdırır. Azərbaycan uzun illərdir müxtəlif beynəlxalq humanitar təşəbbüslərlə çıxış edir, bu istiqamətlərdə genişmiqyaslı layihələrə dəstək olur. 2008-ci ildən start götürmüş "Bakı Prosesi", beynəlxalq mədəniyyətlərarası dialoq forumları və müxtəlif humanitar tədbirlər ölkənin yumşaq güc elementlərini gücləndirir.

## Dünyaya təqdim olunan inkişaf modeli

Qarşıdurmaların artması müasir dünyanın ən böyük problemlərindəndir. Azərbaycan isə əməkdaşlıq modelini ön plana çıxarır. Bura enerji əməkdaşlığı, nəqliyyat inteqrasiyası, regional iqtisadi əlaqələrin genişləndirilməsi, iqlim gündəliyində fəallıq, humanitar dialoq və s. məsələlər aiddir. Bu model göstərir ki, geosiyasi rəqabətin artdığı dövrdə belə qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq mümkündür.

Qlobal proseslərin gedişi göstərir ki, beynəlxalq münasibətlər sistemi qarşıdakı illərdə daha da dəyişəcək. Yeni texnologiyalar, süni intellekt, rəqəmsal iqtisadiyyat, "yaşıl enerji" və nəqliyyat marşrutları dövlətlərin strateji əhəmiyyətini yenidən müəyyən edəcək. Azərbaycan artıq bu proseslərdə passiv müşahidəçi deyil, enerji keçidində fəal iştirakı, rəqəmsal transformasiyanı sürətləndirməsi, nəqliyyat layihələrini genişləndirməsi, investisiya mühitini yaxşılaşdırması, beynəlxalq əməkdaşlığı dərinləşdirməsi ilə prosesin aparıcı tərəflərindəndir. Bütün bunlar Azərbaycanın gələcək onilliklərdə də regionun aparıcı dövlətlərindən biri kimi mövqeyini möhkəmləndirəcək.

Tarix də göstərir ki, dövlətlərin həqiqi gücü yalnız onların hərbi arsenalı ilə ölçülmür. Əsl güc milli birliyi qorumaq, iqtisadi dayanıqlıq yaratmaq, etibarlı tərəfdaş kimi tanınmaq, dəyişən beynəlxalq mühitə çevik uyğunlaşmaq və milli maraqları ardıcıl müdafiə etmək bacarığında ifadə olunur.

Azərbaycan son illər məhz bu istiqamətlərdə mühüm nəticələr əldə edib. Müstəqil xarici siyasət, enerji və nəqliyyat diplomatiyası, beynəlxalq tədbirlərə uğurla evsahibliyi, humanitar təşəbbüslər və regional əməkdaşlıq siyasəti ölkənin beynəlxalq çəkisini əhəmiyyətli dərəcədə artırıb.

Qlobal qarşıdurmaların dərinləşdiyi, beynəlxalq münasibətlər sisteminin yenidən formalaşdığı bir dövrdə Azərbaycanın qarşısında duran əsas vəzifə əldə olunmuş bu mövqeyi qorumaq, onu yeni iqtisadi, texnoloji və diplomatik imkanlarla daha da möhkəmləndirməkdir. Çünki müasir dünyanın ən böyük üstünlüyü yalnız güclü olmaq deyil, həm də etibarlı, proqnozlaşdırıla bilən və məsuliyyətli tərəfdaş kimi qəbul olunmaqdır. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın son illər keçdiyi inkişaf yolu ilə bu məqsədə doğru ardıcıl addımlar atılır və ölkəmiz yeni geosiyasi reallıqlar şəraitində öz mövqeyini gücləndirməyə davam edir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Dünya yeni geosiyasi reallığın astanasındadır

## Enerji təhlükəsizliyi olmadan iqtisadi inkişaf mümkün deyil

**XXI əsr özünün üçüncü onilliyini yaşayarkən dünya yeni bir həqiqətlə üz-üzə qalıb: enerji artıq yalnız iqtisadi inkişafın resursu deyil, qlobal siyasətin istiqamətini müəyyən edən əsas amillərdən biridir. Son illər baş verən geosiyasi qarşıdurmalar, enerji bazarlarındakı dalğalanmalar, təchizat zəncirlərinin pozulması və iqlim gündəliyi ətrafında formalaşan yeni çağırışlar beynəlxalq münasibətlər sistemində enerjinin rolunu daha da artırıb. Məhz belə bir dövrdə bu ayın əvvəlində Bakıda keçirilmiş növbəti "Enerji Həftəsi" təkcə peşəkar enerji forumu deyil, həm də qlobal enerji gündəliyinin mühüm müzakirə platforması kimi diqqət çəkdi.**

Əslində, Bakıdan verilən əsas mesaj enerji sektorunun texniki məsələlərindən daha geniş məna daşıyırdı. Bu mesaj dünya siyasətinin yeni mərhələyə qədəm qoyduğunu, enerji təhlükəsizliyinin yenidən beynəlxalq münasibətlərin mərkəzinə qayıtdığını və Azərbaycanın bu prosesdə artıq regional deyil, qlobal əhəmiyyət daşıyan aktora çevrildiyini nümayiş etdirdi.

Müasir dünyanın enerji xəritəsinə nəzər saldıqda maraqlı bir mənzərə yaranır. Bir tərəfdən, aparıcı dövlətlər "yaşıl keçid" və karbon neytrallığı hədəflərindən danışırlar. Digər tərəfdən isə qlobal iqtisadiyyatın və sənayenin dayanıqlı fəaliyyəti üçün ənənəvi enerji resurslarına ehtiyac əvvəlki qədər, hətta bəzi hallarda daha yüksək olaraq qalır. Son illər Avropada yaşanan enerji böhranı, Yaxın Şərqdəki geosiyasi gərginliklər və dünya bazarlarında baş verən qiymət dəyişiklikləri göstərdi ki, enerji təhlükəsizliyi olmadan iqtisadi təhlükəsizlikdən danışmaq mümkün deyil. Bu reallıq yeni geosiyasi düzənin formalaşmasına səbəb olur. Bir vaxtlar enerji bazarlarında əsas məsələ hasilat həcmləri idisə, bu gün əsas sual etibarlı tərəfdaşın kim olmasıdır. Çünki enerji resurslarının mövcudluğu qədər onların sabit, fasiləsiz və siyasi risklərdən kənar şəkildə bazarlara çatdırılması da vacibdir. Məhz burada Azərbaycanın rolu xüsusi əhəmiyyət qazanır.

Son otuz ildə Azərbaycan təkcə neft və qaz hasil edən ölkə kimi deyil, həm də etibarlı enerji tərəfdaşı kimi beynəlxalq nüfuz formalaşdırıb. Bu nüfuz birdən-birə yaranmayıb. O, uzunmüddətli strategiyanın, ardıcıl siyasətin və düşünülmüş enerji diplomatiyasının nəticəsidir.

1990-cı illərin əvvəllərində ağır iqtisadi və siyasi vəziyyətlə üzləşən Azərbaycan təbii sərvətlərdən istifadə etməklə dövlət müstəqilliyini möhkəmləndirmək yolunu seçdi. O dövrdə qəbul edilən qərarlar sonradan ölkənin inkişaf trayektoriyasını müəyyənləşdirdi. "Əsrin müqaviləsi" ilə başlayan proses tədricən yeni enerji infrastrukturunun yaradılmasına, beynəlxalq investisiyaların cəlb edilməsinə və Azərbaycanın qlobal enerji sisteminə inteqrasiyasına gətirib çıxardı. Bu gün həmin strategiyanın nəticələri artıq konkret faktlarla ifadə olunur. Azərbaycan qazı Avropanın müxtəlif regionlarına çatır, ölkə beynəlxalq enerji layihələrinin təşəbbüskarı kimi çıxış edir, enerji diplomatiyası isə xarici siyasətin mühüm istiqamətlərindən birinə çevrilib.

Ən diqqətçəkən məqamlardan biri ondan ibarətdir ki, Azərbaycanın enerji siyasəti yalnız iqtisadi gəlir əldə etməyə yönəlməyib. Bu siyasət paralel olaraq regional əməkdaşlıq platformalarının yaranmasına, yeni nəqliyyat və logistika dəhlizlərinin formalaşmasına, siyasi dialoqun genişlənməsinə və etimad mühitinin qurulmasına xidmət edib.

Əgər bu gün Avropa İttifaqı enerji təhlükəsizliyi məsələsində Azərbaycanı strateji tərəfdaş kimi qiymətləndirirsə, bunun səbəbi yalnız qaz həcmləri deyil. Əsas səbəb Azərbaycanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsi, enerji təchizatında etibarlı mövqe nümayiş etdirməsi və geosiyasi dəyişikliklər fonunda sabit tərəfdaş kimi çıxış etməsidir.

"Bakı Enerji Həftəsi"ndə səslənən fikirlər də məhz bu həqiqəti bir daha təsdiqlədi. Tədbirdə iştirak edən beynəlxalq təşkilatların, enerji şirkətlərinin və müxtəlif ölkələrin nümayəndələrinin çıxışlarında ortaq məqam diqqəti cəlb edirdi: dünya enerji sistemində etibarlılıq amili hər zamankından daha vacibdir. Bu baxımdan Azərbaycanın enerji siyasəti son illərdə yeni mərhələyə qədəm qoyub. Əgər əvvəlki dövrdə əsas diqqət neft və qazın hasilatına və ixracına yönəlmişdisə, indi gündəmdə daha geniş məsələlər dayanır. Buraya enerji təhlükəsizliyi, "yaşıl enerji" keçidi, regional enerji inteqrasiyası və yeni enerji dəhlizlərinin formalaşdırılması daxildir.

Müasir dövrün maraqlı paradokslarından biri ondan ibarətdir ki, "yaşıl enerji" keçidindən ən çox danışılan bir vaxtda təbii qaza olan tələbat da artır. Bir çox beynəlxalq təşkilatların hesabatları göstərir ki, qarşıdakı onilliklərdə təbii qaz qlobal enerji balansında mühüm yer tutmağa davam edəcək. Bunun əsas səbəbi qazın həm enerji təhlükəsizliyinin təmin edilməsində, həm də "yaşıl keçid" dövründə körpü enerji mənbəyi kimi çıxış etməsidir.

Azərbaycan bu prosesi düzgün qiymətləndirən ölkələrdən biridir. Ölkə bir tərəfdən mövcud neft-qaz potensialından səmərəli istifadə edir, digər tərəfdən isə gələcəyin enerji sisteminə inteqrasiyanı sürətləndirir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən "yaşıl enerji" layihələri bu baxımdan xüsusi diqqətə layiqdir. Bir neçə il əvvəl hərbi əməliyyatların getdiyi ərazilərdə bu gün yeni hidroelektrik stansiyalar, günəş və külək enerjisi layihələri reallaşdırılır. Bu, təkcə iqtisadi layihə deyil, həm də Azərbaycanın gələcəyə baxışının göstəricisidir.

Dünyada enerji keçidi ilə bağlı ən ciddi problemlərdən biri ənənəvi və bərpaolunan enerji arasında tarazlığın qorunmasıdır. Bir çox ölkələr ya sürətli keçid səbəbindən enerji çatışmazlığı riski ilə üzləşir, ya da köhnə modeldən tam imtina edə bilmirlər. Azərbaycan isə daha praqmatik yanaşma nümayiş etdirir. Burada ənənəvi enerji "yaşıl enerji"yə keçidin maliyyə bazasını formalaşdırır, "yaşıl enerji" isə gələcək inkişafın əsas istiqaməti kimi nəzərdən keçirilir. Məhz buna görə də "Bakı Enerji Həftəsi"ndə yalnız neft və qaz layihələri deyil, "yaşıl enerji" dəhlizləri, elektrik kabelləri və regional enerji bağlantıları da geniş müzakirə olundu. Qara dəniz vasitəsilə Avropaya uzanacaq "yaşıl enerji" layihələri, Mərkəzi Asiya ilə enerji əməkdaşlığının genişləndirilməsi və yeni ixrac marşrutlarının yaradılması, əslində, daha böyük geosiyasi mənzərənin hissəsidir. Bu mənzərədə Azərbaycan Şərqlə Qərbi birləşdirən strateji qovşağa çevrilir.

Bir neçə il əvvəl daha çox enerji istehsalçısı kimi tanınan ölkə bu gün enerji marşrutlarını formalaşdıran, regional əməkdaşlıq platformaları yaradan və yeni enerji təhlükəsizliyi modelinin iştirakçısı olan dövlət kimi çıxış edir. Bu transformasiya təsadüfi deyil. Son onilliklər ərzində həyata keçirilən siyasət nəticəsində Azərbaycan özünü yalnız resurs sahibi kimi deyil, həm də məsuliyyətli tərəfdaş, etibarlı tranzit ölkə və regional sabitlik amili kimi təqdim edə bilib.

Bütün bunlar isə yeni geosiyasi reallığın formalaşdığı bir dövrdə xüsusi əhəmiyyət kəsb edir.

Bu gün beynəlxalq münasibətlər sistemində güc anlayışı dəyişir. Artıq dövlətlərin təsir imkanları yalnız hərbi və iqtisadi potensialla ölçülmür. Enerji, logistika, texnologiya və kommunikasiya imkanları da qlobal gücün mühüm elementlərinə çevrilib. Azərbaycan son illərdə məhz bu istiqamətdə mövqeyini gücləndirir. Enerji layihələri ilə nəqliyyat dəhlizlərinin, regional əməkdaşlıq formatlarının və iqtisadi inteqrasiyanın paralel inkişafı ölkənin geosiyasi çəkisini artırır.

"Bakı Enerji Həftəsi" çərçivəsində imzalanan yeni sənədlər, əldə olunan razılaşmalar və səslənən fikirlər göstərdi ki, Azərbaycanın enerji gündəliyi artıq yalnız ölkədaxili inkişaf məsələsi deyil. Bu gündəlik daha geniş coğrafiyanı əhatə edən beynəlxalq proseslərin bir hissəsinə çevrilib. Məhz buna görə də Bakıdan verilən enerji mesajı təkcə enerji bazarlarına deyil, bütövlükdə beynəlxalq siyasətə ünvanlanmış mesaj kimi qəbul edilməlidir.

Bu mesajın mahiyyəti sadədir: enerji təhlükəsizliyi olmadan iqtisadi inkişaf mümkün deyil; etibarlı tərəfdaşlıq olmadan enerji təhlükəsizliyi təmin edilə bilməz; uzunmüddətli strateji baxış olmadan isə nə tərəfdaşlıq, nə də dayanıqlı inkişaf mümkündür. Azərbaycanın son 30 ildə keçdiyi yol bu həqiqətin təsdiqidir.

Dünya yeni geosiyasi reallığın astanasındadır. Enerji bazarları dəyişir, yeni marşrutlar yaranır, yeni əməkdaşlıq formatları formalaşır. Bütün bu proseslərin fonunda Bakı yalnız hadisələri izləyən deyil, onları formalaşdıran mərkəzlərdən biri kimi çıxış edir. "Bakı Enerji Həftəsi"nin ən mühüm nəticəsi də məhz budur: Azərbaycan artıq qlobal enerji gündəliyinin iştirakçısı deyil, onun istiqamətlərini müəyyənləşdirən aktorlardan biridir.

***Yaşar MƏMMƏDOV,***
***Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad elmləri doktoru***

# Dünya Çempionatı -2026

## Tuhel su fasilələrinə görə gileyləndi



İngiltərə millisinin baş məşqçisi Tomas Tuhel su fasilələri ilə bağlı fikirlərini bölüşüb. BBC xəbər verir ki, almaniyalı mütəxəssis bu fasilələrin oyuna təsirinin gözlədiyindən daha böyük olduğunu bildirib.

"İndi düşünürəm ki, bu fasilələr oyuna əvvəl təsəvvür etdiyimdən daha çox təsir edir. Əvvəllər də hava həddindən artıq isti olanda belə fasilələr olurdu. Bu, zəruri idi, amma həmin fasilələr daha qısa çəkirdi və yalnız bəzi oyunlarda tətbiq edilirdi. İndi isə ədalət naminə hər matçda tətbiq olunur. Beləliklə, oyun dörd hissəyə bölünür. Bu da matçın xarakterini düşündüyümdən daha çox dəyişir", - deyə Tuhel bildirib.

Qeyd edək ki, DÇ-2026-da hər hissənin ortasında məcburi 3 dəqiqəlik su fasilələri tətbiq olunur.

## "Messinin nə etdiyinə baxmıram"



Fransa millisinin hücumçusu Kilian Mbappe qrup mərhələnin 2-ci turunda İraq üzərində 3:0 hesablı qələbədən sonra fikirlərini bölüşüb.

"Mən bombardir olmaq barədə düşünmürəm. Mənim üçün ən vacibi komandanın güclü oyun göstərməsidir ki, özümüzə inamımız artsın. Dünya çempionatlarında həmişə qol vurmuşam, buna görə də rahatsız olmağa ehtiyac yoxdur. Əsas istəyim Fransa millisinin inkişaf etməsidir. Çünki sona qədər getmək istəyiriksə, bizi ciddi sınaqlar gözləyir", - deyə Mbappe bildirib.

Messi ilə bombardirlik yarışı haqda danışan fransalı futbolçu isə bunları söyləyib:

"Xeyr, burada heç bir rəqabət yoxdur. Leo həmişə qol vurub, indi də vurur və vurmağa davam edəcək. Mən onun nə etdiyinə baxmıram. Yoxsa daha çox iş görməli olardım. Mən yalnız öz komandama diqqət yetirirəm. Qol vurduqca həmin səviyyəyə yaxınlaşırsan, amma yenə deyirəm, mənim üçün əsas məsələ Fransa millisinin inkişafıdır".

Qeyd edək ki, Argentina millisinin kapitanı Lionel Messi Avstriya ilə oyunda (2:0) dubl edərək dünya çempionatları tarixinin ən məhsuldar futbolçusuna çevrilib. Mbappenin isə mundiallarda hesabında 16 qol var. Argentina artıq pley-offa vəsiqəni təmin edib.

## Skaloni komandasının oyunundan danışdı

Argentina millisinin baş məşqçisi Lionel Skaloni Avstriya üzərində 2:0 hesablı qələbəni dəyərləndirib. "TyC Sports" argentinalı mütəxəssisin oyunsonrası mətbuat konfransındakı fikirlərini belə təqdim edib:



"Səbir lazım olduqda komanda bunu edir. Bəzən topsuz qalırdıq, amma komanda istənilən anda nə edəcəyini bilirdi. Avstriya hündürboylu və fiziki cəhətdən güclü oyunçuları olan güclü bir komandadır. Bununla belə, qol vurmaq üçün fürsətlər tapa biləcəyimizi bilirdik. Növbəti mərhələyə yüksəldiyimiz üçün xoşbəxtik. Top Messidə olanda, bütün komanda işə düşür. Çətinlik çəkdiyimiz vaxtlarda belə, o, çox çalışdı, komandaya töhfə verdi. Başqa nə deyəcəyimi, hətta kifayət qədər sözümün olub-olmadığını belə bilmirəm. Günün ikinci qrup matçının necə keçəcəyini görəcəyik. Nəticə imkan verərsə, digər oyunçulara da oyun vaxtı verəcəyik".

Argentina iyunun 28-də İordaniya ilə qarşılaşacaq.

## Roberto Karlos braziliyalıları məyus etdi



Braziliya millisinin sabiq futbolçusu Roberto Karlos doğma vətəninin azarkeşlərini məyus edəcək açıqlama verib. "Real Madrid"in keçmiş müdafiəçisi hazırda Argentina yığmasının Braziliyadan daha güclü olduğunu etiraf edib.

Roberto Karlos bu fikirləri Serxio Agueronun təqdim etdiyi "Casa del Kun" proqramında səsləndirib. "Gəlin keçmişi bir kənara qoyaq. Bu günə baxsaq, siz son dünya çempionusunuz. Braziliya hazırkı dünya çempionu olan Argentinanı məğlub etmək üçün oyununu daha da yaxşılaşdırmalıdır. Düşünürəm ki, Argentina öndədir. Əvvəla, ona görə ki, komanda ilə uzun müddətdir çalışan baş məşqçiləri var. Bundan başqa, onların bütün futbol dünyası və bizim nəslimiz üçün etalon sayılan Leo Messisi var", - deyə Roberto Karlos bildirib.

Bununla yanaşı, sabiq futbolçu qeyd edib ki, Braziliya millisi oyununu inkişaf etdirməyə davam edərsə, 2026-cı il dünya çempionatının finalına qədər irəliləmək potensialına malikdir.

## Uruqvay-Kabo-Verde oyununda maraqlı hadisə

Qrup mərhələsinin ikinci turunda keçirilən Uruqvay-Kabo-Verde oyununda kuryoz hadisə qeydə alınıb.



Uruqvaylıların ikinci qolundan öncə onların futbolçusu Vinas zədələnən kabo-verdeli futbolçuya yardım etməyə çalışıb. Lakin o, komandasının hücuma keçdiyini görərək zədəli futbolçunun ayağını yerə buraxaraq rəqib qapısına tərəf qaçıb. Sonda epizod qol olub.

Onun bu hərəkəti artıq sosial şəbəkələrdə diqqət mərkəzinə düşüb və gülüş hədəfinə çevrilib.

## Qanalı cadugər Harri Keyni lənətləyəcəyinə söz verib



Dünya çempionatındakı Qana - İngiltərə matçı öncəsi afrikalıların məşhur şamanı mətbuata qeyri-adi açıqlamalar verib.

"Daily Star" nəşri xəbər verir ki, qanalı cadugər həkim Nana Kvaku Bonsam İngiltərə millisinin kapitanı Harri Keyni lənətləyəcəyinə söz verib. Bonsam açıqlamasında: "Harri Keynin üzərində işləyirəm. Onun ciddi zədə almasını istəmirəm, sadəcə ölkəmə qarşı oynaya bilməməsi üçün onu dayandırmaq mənə kifayət edəcək. Qanaya kömək etmək üçün öz işimi görəcəyəm", - deyə bildirib.

## Niko Şlotterbek sıradan çıxdı



Almaniya millisinin futbolçusu Niko Şlotterbek dünya çempionatının növbəti oyunlarını buraxacaq.

26 yaşlı müdafiəçiyə sol topuğunda bağ yırtığı diaqnozu qoyulub. O, ən azı 8 həftə yaşıl meydanlardan kənarda qalacaq. Xatırladaq ki, oyunçu Fildişi Sahilini məğlub etdikləri E qrupunun II turunun matçında zədə alıb.

## Rangnik komandasının oyunundan razı qalıb

"Daha yaxşı nəticə göstərə bilərdik, amma ümumilikdə oyunumuz planlaşdırdığımız kimi idi - cəsarətli və qətiyyətli".

Bu sözləri Avstriya millisinin baş məşqçisi Ralf Rangnik 2-ci turda Argentinaya uduzduqları oyundan (0:2) sonra deyib. Almaniyalı mütəxəssis matçı belə şərh edib: "Bir və ya iki vəziyyətdə bir az daha cəsarət və bəlkə də uzaqdan bir neçə zərbə görmək istərdim ki, bu da, xüsusən də ilk hissədə tamamilə mümkün idi. Əks hücumda ikinci qolu buraxmağımız çox məyusedici idi. Amma ümumilikdə bu, bizim tərəfimizdən yaxşı oyun idi".



O, görüşdə dubl edən rəqib oyunçusu Lionel Messi ilə bağlı da danışıb: "39 yaşlı oyunçunun bir matçda iki qol vurduğunu gördük, əvvəlki oyunda isə het-trik etmişdi. O, təkbaşına şou yaradır, hamıdan tamamilə fərqli səviyyədə oynayır".

## Klozedən Messinin rekorduna reaksiya

Almaniya millisinin keçmiş hücumçusu Miroslav Kloze Lionel Messinin uğuru ilə bağlı fikirlərini bildirib.



Kloze rekordunun qırılmasına sakit reaksiya verib. "Süddeutschen Zeitung" veteran forvardın qısa açıqlamasını belə təqdim edib: "Mən həmişə Messinin yaxşı oyunçu olduğunu demişəm. Mənim üçün Lionel Messi bütün dövrlərin ən yaxşı futbolçusudur! Təbrik edirəm, çempion!".

Klosenin dünya çempionatlarında 16 qolu var. O, turnirdən əvvəl rekordunun yenilənməsinə hazır olduğunu bildirmiş və argentinalı hücumçuya hörmətini ifadə edərək onu "dahi" adlandırmışdı.

## Cənubi Koreya millisindən radikal addım

Cənubi Koreya millisi yerli media ilə planlaşdırılan bütün müsahibələri ləğv edib. Buna səbəb komandanın kapitanı Son Hın Min barədə yayılan tənqidi səs yazısı olub.



Hadisə iyunun 7-də Qvadalaxarada açıq məşq zamanı qeydə alınıb. "Globo" nəşrinin yaydığı məlumata görə, jurnalist canlı yayımda kapitanla bağlı sərt fikirlər səsləndirib: "Kapitandır deyə elə qaçır ki, sanki hərbi komandaya rəhbərlik edir. Halbuki heç məşqdə qaçışını tam olaraq bitirmədi". Səs yazısının sosial şəbəkələrdə yayılmasından sonra federasiya yerli media ilə ünsiyyətdə olmamaq qərarı verib.

Xatırladaq ki, komanda DÇ-2026-nın A qrupunda iki turdan sonra 3 xalla ikinci yerdə qərarlaşıb.

## İspaniya yığmasının məşqi yarımçıq qaldı



3-cü turda Uruqvayla matça hazırlaşan İspaniya millisinin məşqi yarımçıq qalıb. Komandanın məskunlaşdığı Tennessi ştatının Çattanoqa şəhərində keçirilən məşq güclü külək səbəbindən vaxtından əvvəl dayandırılıb.

Futbolçular meydançaya çıxsalar da, cəmi 20 dəqiqədən sonra məşqi tərk etməli olublar. Məşqdən əvvəl ərazidə olan hər kəsin telefonuna fırtına və saatda 130 kilometrə çatan külək barədə xəbərdarlıq mesajı göndərilib. Buna baxmayaraq, meydançanın məxsus olduğu Beylor məktəbinin nümayəndələri əvvəlcə məşqin keçirilməsinə icazə veriblər. Futbolçular məşq zamanı 30 yaşı tamam olan Rodri və Mikel Merinonu, həmçinin 65 illik yubileyini qeyd edən baş məşqçi Luis de la Fuenteni təbrik etməyə də vaxt tapıblar. Lakin qısa müddət sonra güclü yağış başlayıb və komanda hazırlığı idman zalında davam etdirmək məcburiyyətində qalıb.

Qeyd edək ki, İspaniya millisi DÇ-2026-nın qrup mərhələsinin 3-cü turunda Uruqvay yığması ilə qarşılaşacaq. Oyun iyunun 27-də keçiriləcək.

## "Norveçlə növbəti oyun həlledici olacaq"



Fransa millisinin baş məşqçisi Didye Deşam dünya çempionatının qrup mərhələsinin ikinci turunda İraqa qarşı oyunu qısa şərh edib.

FIFA-nın Mətbuat xidməti "üçrənglilər"in çalışdırıcısının fikirlərini belə çatdırıb: "Fasilədən sonra oyunu tam nəzarətə götürdük. İlk hissədə işlər o qədər də asan deyildi. Fransa artıq turnirin növbəti mərhələsinə yüksəlib, amma Norveçlə növbəti oyun həlledici olacaq. Kimin birinci yeri tutacağına aydınlıq gələcək".

Qeyd edək ki, Fransa İraqı 3:0 hesabı ilə məğlub edib. Qollardan 2-ni Kilian Mbappe vurub, Usman Dembele matçda son nöqtəni qoyub.

İki turdan sonra Fransa və Norveçin hər birinin 6 xalı var. Komandalar iyunun 26-da üz-üzə gələcəklər.

## "Vikinq gəmisi"nin qələbə sevinci




Qrup mərhələsində növbəti mərhələyə vəsiqəni təmin edən Norveç millisinin futbolçuları maraqlı görüntülərlə diqqət çəkiblər.

Komanda uğurlu nəticədən sonra azarkeşləri ilə birlikdə "Vikinq gəmisi" hərəkəti ediblər. Norveçli futbolçular tribunadakı fanatlarla birlikdə bu hərəkəti təkrarlayıblar. Həmin anlar stadionda böyük coşqu yaradıb və sosial şəbəkələrdə geniş yayılıb. "Vikinq gəmisi" adlanan bu hərəkət Norveç millisinin azarkeşlərlə birlik və həmrəyliyinin göstəricisi kimi qiymətləndirilir.

## Kubarsi dünya çempionatında tarix yazır

İspaniya yığmasının istedadlı müdafiəçisi Pau Kubarsi dünya çempionatında performansı ilə diqqəti üzərinə çəkməyi bacarıb.



"SofaScore" nəşri xəbər verir ki, cəmi 18 yaşı olan gənc oyunçu mundial çərçivəsində ötürmə dəqiqliyi reytinqində bütün rəqiblərini qabaqlayaraq mütləq liderə çevrilib. Statistikaya əsasən, Kubarsi turnir ərzində etdiyi ötürmələrin 98,8 faizini komanda yoldaşlarına dəqiq çatdırıb. Məhz bu göstərici onu dünya çempionatının ən sərrast ötürmə edən futbolçusu edib.

## İordaniya da mundialla vidalaşdı



Pley-off şansını itirən daha bir komanda müəyyənləşib. Bu, İordaniya olub.

İordaniya millisi qrup mərhələsinin 2-ci turunda Əlcəzairə uduzub. Bununla da 3-cü turun nəticəsindən asılı olmayaraq, turnirlə vidalaşacağı dəqiqləşib.

İordaniya yığması cari mundialda pley-off şansını əldən verən 4-cü komandadır. Adıçəkilən komanda son oyununda - 3-cü turda Argentina millisi ilə qarşılaşacaq.

## Oğlunun oyununa baxmaq üçün stadiona gəldi

Kabo-Verde komandasının qapıçısı Vozinyanın anası Ana Candida Evora oğlunun oyununu izləmək üçün stadiona gəlib.



O, Uruqvaya qarşı keçirilən ikinci turun matçında arenada Vozinya və komandasını dəstəkləyib.

Vozinya turnirin ilk ulduzlarından birinə çevrilmişdi. O, İspaniya ilə gözlənilməz 0:0 hesablı heç-heçə zamanı 7 dəfə komandasını qoldan xilas etmişdi. Matçdan sonra 40 yaşlı qapıçı bildirmişdi ki, anası yüksək xərclərə görə viza ala bilməyib.

Daha sonra ABŞ tərəfindən onun üçün rüsumlar ləğv edilmiş və o, bu ölkəyə gəlmişdi.

***Hazırladı:***
***Dönməz ABBASOV***

BEYNƏLXALQ HƏYAT

# ABŞ İran neftinə qarşı sanksiyaları 60 gün müddətinə ləğv edib

## Neft və neft-kimya məhsulları ilə bağlı əməliyyatlar üçün ikiaylıq lisenziya verilib

ABŞ Maliyyə Nazirliyi İran neftinin istehsalına, tədarükünə və satışına icazə verən 60 günlük müvəqqəti ümumi lisenziya verib. Bu barədə məlumat iyunun 22-də Vaşinqton və Tehran arasında İsveçrənin Bürgenstok şəhərində keçirilən danışıqlardan sonra ABŞ-nin maliyyə naziri Skott Bessent tərəfindən elan edilib.



ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsinin (OFAC) sənədinə görə, lisenziya 21 avqust 2026-cı il tarixinə qədər qüvvədə olacaq. Əgər belə əməliyyatlar bu məhsulların satışı, çatdırılması və ya boşaldılmasını əhatə edirsə, bu lisenziya İran neftinin, neft-kimya məhsullarının və neft məhsullarının ABŞ-yə idxalına icazə verir. İcazə ABŞ sanksiyalarına məruz qalan gəmilərlə bağlı əməliyyatlara şamil edilir. İran nefti və neft məhsulları üçün ödənişlər, o cümlədən İrana, İran hökumətinə və ya digər sanksiya tətbiq olunan qurumlara ABŞ dolları ilə edilə bilər. Lakin lisenziya Şimali Koreya, Kuba və Rusiya tərəfindən işğal edilmiş Ukrayna ərazilərindən olan şəxslərlə aparılan əməliyyatlara şamil olunmur və digər mövcud məhdudiyyətləri ləğv etmir.

ABŞ-nin maliyyə naziri Skott Bessentin dediyinə görə, Tehran Hörmüz boğazını açmağı öhdəsinə götürüb və İran neftinə qarşı sanksiyaların müvəqqəti olaraq ləğv edilməsi qərarı danışıqlar zamanı əldə olunmuş razılaşmalar çərçivəsində verilib. Bununla bağlı o, sosial mediada yazıb: "İsveçrədə davam edən məhsuldar danışıqlara uyğun olaraq, İran Hörmüz boğazından sərbəst və açıq tranziti təmin etməyi və Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) müfəttişlərinin ölkəyə daxil olmasına icazə verməyi öhdəsinə götürüb".

# Seul Ukraynada əsir götürülmüş Şimali Koreya əsgərlərini qəbul etməyə hazırdır

"Rusiya tərəfindən Ukraynaya döyüşmək üçün göndərilən və orada əsir götürülən Şimali Koreya əsgərləri istəsələr azad edildikdən sonra Cənubi Koreya tərəfindən qəbul ediləcəklər". Seuldakı Xarici İşlər Nazirliyi bu açıqlamanı 23 iyun tarixində verib. Bəyanatda bildirilir ki, Cənubi Koreya Şimali Koreya hərbi əsirlərinin KXDR-ə qaytarılmasına və Rusiyaya təhvil verilməsinə qarşıdır.

İyunun 22-də Cənubi Koreyanın "Yonhap" xəbər agentliyi Ukraynanın xarici işlər naziri Andriy Sibiqanın gələn həftə Cənubi Koreyaya səfər edərək ikitərəfli münasibətləri və "Şimali Koreyanın hərbi əsirləri məsələsini" Cənubi Koreyanın xarici işlər naziri Ço Hyonla müzakirə etməyi planlaşdırdığını bildirib: "Ço iyunun 30-da Seulda Sibiqa ilə danışıqlar aparacaq. Ukrayna ilə Rusiya arasında davam edən müharibə, eləcə də Ukraynadakı Şimali Koreya hərbi əsirləri məsələsi müzakirə oluna bilər".



2025-ci ilin əvvəllərində Moskvaya dəstək vermək üçün Rusiyanın Kursk bölgəsinə böyük bir Şimali Koreya hərbi kontingentinin tərkibində göndərilən iki Şimali Koreya əsgəri Ukrayna Silahlı Qüvvələri tərəfindən əsir götürülüb. Həmin əsgərlər Cənubi Koreyaya köçmək istədiklərini bildiriblər.

Cənubi Koreya hökuməti öz növbəsində vurğulayıb ki, konstitusiyaya görə, Şimali Koreya əsgərləri Cənubi Koreya vətəndaşları hesab olunur və Seul Cənubi Koreyaya köçmək istəyən bütün hərbi əsirləri qəbul edəcək, onlara tətbiq edilən qanun və qaydalar çərçivəsində lazım olan mühafizə və dəstək verəcək.

Seulun yüksəkvəzifəli rəsmisi "Yonhap" agentliyinə bildirib ki, hökumətin onların azad iradələrinə əsaslanaraq Cənubi Koreyaya tezliklə köçməsini asanlaşdırmaq kimi fundamental mövqeyi dəyişməz olaraq qalır. O əlavə edib ki, Cənubi Koreya hakimiyyəti Sibiqanın Seula səfəri nəticəsində bu məsələdə irəliləyiş gözləyir.

Cənubi koreyalı fəallar və Şimali Koreyadan qaçanlar bildiriblər ki, Pxenyanın hərbi doktrinası əsgərlərinin təslim olmasını açıq şəkildə qadağan edir. 1990-cı illərdə yeniyetmə olarkən Şimali Koreyadan qaçan Kim Eu-jin xarici jurnalistlərə verdiyi açıqlamada bildirib ki, əsgərlərə ukraynalılar tərəfindən əsir götürülmək təhlükəsi ilə üzləşdikləri halda intihar etmək əmri verilib. Cənubi Koreya Konstitusiyasının 3-cü maddəsinə əsasən, KXDR-in bütün sakinləri hələ də bu ölkənin vətəndaşı hesab olunurlar və istənilən vaxt Cənuba daxil olmaq və yaşamaq üçün tam hüquqa malikdirlər.

Ukraynadakı müharibə artıq beşinci ilindədir. Şimali Koreya Rusiyaya hərbi dəstək verir: Cənubi Koreya kəşfiyyat agentliyi NIS-in hesablamalarına görə, Rusiyanın tərəfində döyüşmək üçün 15 mindən çox Şimali Koreya əsgəri göndərilib. Onlardan təxminən 6 mini öldürülüb, daha 4 mini isə yaralanıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Hörmüz boğazının açılması Avropanı yüksək enerji qiymətlərindən xilas edəcəkmi?

ABŞ və İran arasında imzalanan Anlaşma Memorandumu və Hörmüz boğazının yenidən gəmilərin keçidi üçün açılması neft və qaz idxalından asılı olan Avropa hökumətlərinin narahatlıqlarını aradan qaldırıb. Müharibə dövründə qlobal neft və mayeləşdirilmiş təbii qazın (LNG) beşdəbirinin keçdiyi bu strateji boğazın bağlanması Avropada enerji qiymətlərini kəskin qaldırmış və qaz anbarlarını boşaltmışdı.




Lakin nüfuzlu "Chatham House" beyin mərkəzinin analitiklərinə görə, sevinmək hələ çox tezdir. Çünki boğazın açılması Avropanın dərin enerji təhlükəsizliyi problemini həll etmir. Ekspertlər bildirirlər ki, Yaxın Şərqdə tam sülh bərqərar olmalıdır və müvəqqəti razılaşmalar problemi kökündən həll etmir. Hörmüz boğazı qlobal iqtisadiyyat üçün çox vacibdir. Onun bağlanması Avropanın enerji balansını tamamilə pozmuşdu. İndi imzalanan memorandum gərginliyi azaldır. Lakin bu addım Avropanın uzunmüddətli risklərini aradan qaldırmır. Hətta yekun sülh sazişi imzalansa belə, qlobal gəmiçilik marşrutlarının tam bərpası və tədarükün düzəlməsi aylarla vaxt aparacaq. Ən əsası, sığorta və gəmiçilik şirkətləri boğazdan keçişin uzunmüddətli dövrdə tam təhlükəsiz olduğuna hələ əmin deyillər. Üstəlik, müharibə Avropanın ümid bəslədiyi Qətərin qaz infrastrukturuna ağır zərbə vurub. Bu səbəbdən Qətərin qaz ixracat gücünün təxminən altıdabiri sıradan çıxıb. Zədələnmiş infrastrukturun bərpası isə bir neçə il çəkə bilər. Bu səbəbdən körfəzdən gələn qaz bundan sonra həmişə "geosiyasi risk bədəli" ilə daha baha satılacaq. Məsələn, böyük sığorta şirkətləri risk haqlarını hələ də yüksək saxlayır. Bu vəziyyət daşıma xərclərini birbaşa artırır. Nəticədə Avropa sənayesi üçün xammal bahalaşır. Digər tərəfdən, Qətərdəki zədəli terminalların təmiri asan deyil. Müasir avadanlıqların gətirilməsi xeyli vaxt aparır. Deməli, Körfəz qazı gəlsə də, ucuz olmayacaq.

2021-ci ildə Avropanın aldığı LNG qazının 28 faizi ABŞ-nin payına düşürdüsə, 2025-ci ildə bu rəqəm 58, 2026-cı ilin birinci rübündə isə 63 faizə yüksəlib. Analitiklər proqnozlaşdırırlar ki, 2026-cı ilin sonunda ABŞ daxili boru kəmərləri və LNG daxil olmaqla Norveçi geridə qoyaraq Avropanın ən böyük qaz tədarükçüsünə çevriləcək. Tək bir mənbədən asılı qalmaq isə hər zaman təhlükəlidir.

Yaxın Şərqdə atəşkəs xəbəri ilə təbii qazın birja qiymətləri qismən düşsə də, onların müharibədən əvvəlki ucuz səviyyəyə qayıtması gözlənilmir. Hazırda Avropanın qaz anbarları 45 faiz doludur, normalda bu mövsümdə dərəcə 55 faiz olmalı idi. Qarşıdan gələn qışa qədər anbarları doldurmaq məcburiyyəti yay və payız aylarında qaza olan tələbatı və qiymətləri yüksək saxlayacaq. Avropa İttifaqının qaydalarına görə, anbarlar qışa qədər 90 faiz dolmalıdır. Hazırkı boşluq hökumətləri yayda təcili qaz almağa məcbur edir. Eyni zamanda Çin və Yaponiya kimi Asiya ölkələri də qaz idxalını artırdığından qlobal bazarlarda böyük rəqabət yaranır. Avropa qaz almaq üçün daha yüksək qiymət təklif edir. Bu isə yerli istehsalı zəiflədir və inflyasiyanı artırır.

Xatırladaq ki, Avropa dünyada hasil olunan qazın 4,8 faizini istehsal edir və qlobal qaz ehtiyatlarının 1,7 faizinə sahibdir. Lakin qlobal qazın 11,7 faizini məhz Avropa istehlak edir. Bu böyük kəsir Avropanı həmişə idxaldan asılı qoyur.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Münasibətlərimiz möhkəm təməllər üzərində qurulub
Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov Azərbaycana dövlət səfəri edib
Prezident İlham Əliyevin innovativ davamlı inkişaf siyasətində dövlət qulluğunun strateji rolu
Böyük qayıdış və Azərbaycanın strateji gələcəyi
Müasir dövrdə kənd təsərrüfatının inkişafı yeni yanaşma tələb edir
"Parlament diplomatiyası Azərbaycanın beynəlxalq mövqelərini daha da möhkəmləndirir"

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Ermənistan vətəndaşlarının şikayətləri üzrə Apellyasiya Məhkəməsi davam etdirilib

İyunun 23-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Əvvəlcə müdafiə çıxışını davam etdirmək üçün söz təqsirləndirilən Levon Mnatsakanyana verilib. O, bir həftə əvvəl keçirilmiş məhkəmə iclasında başladığı müdafiə çıxışını davam etdirərək fikirlərini səsləndirib. L.Mnatsakanyan ittiham tərəfinin təqdim etdiyi videomaterialın və istinad etdiyi faktların məhkəmə tərəfindən qərar qəbul edilərkən nəzərə alınmasını xahiş edib. O, özünə qarşı irəli sürülmüş ittihamlar üzrə özünü təqsirli bilmədiyini qeyd edib.

Daha sonra təqsirləndirilən Erik Qazaryanın hüquqlarını qoruyan vəkili çıxış edib. Vəkil müdafiə etdiyi şəxsin apellyasiya şikayəti verdiyini və həmin şikayəti dəstəklədiyini bildirib. Ardınca çıxış edən Erik Qazaryan özünü təqsirli hesab etmədiyini qeyd edib və müdafiəçisinin səsləndirdiyi mövqeyi təsdiqləyib.

Sonra təqsirləndirilən Qarik Martirosyanın vəkili çıxış edərək bildirib ki, müdafiə etdiyi şəxsə qarşı irəli sürülmüş ittihamların yüngülləşdirilməsi zəruridir.

Onun digər müdafiəçisi də çıxışında təqsirləndirilən Q.Martirosyanın cəzasının yüngülləşdirilməsini və bəzi maddələrin ittihamdan xaric olunmasını xahiş edib.

Sonra təqsirləndirilən Qarik Martirosyan çıxış edib. O, özünü təqsirli bilmədiyini bildirib.

Təqsirləndirilən Levon Balayanın vəkili hüquqlarını qoruduğu şəxsin barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Levon Balayan müdafiəçisinin çıxışı ilə razılaşdığını deyib.

Təqsirləndirilən Qurgen Stepanyanın hüquqlarını müdafiə edən vəkili onun barəsində olan ittiham hökmünün ləğv olunmasını və bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib. Qurgen Stepanyan müdafiəçisinin çıxışı ilə razılaşdığını bildirərək özünü təqsirli bilmədiyini qeyd edib.

Məhkəmənin növbəti iclası iyunun 30-da keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 5 fevral 2026-cı il tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.


## "BANK RESPUBLİKA" ASC SƏHMDARLARININ NƏZƏRİNƏ!

***"Bank Respublika"ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 24 iyul 2026-cı il tarixində saat 10:00-da, Xaqani küçəsi, 21 ünvanında yerləşən bankın Baş Ofisində keçiriləcək.***

***Gündəlikdəki məsələlər:***

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. "Bank Respublika" ASC-nin inkişaf strategiyası və bununla əlaqədar kapital strukturuna dair müzakirələrin və müvafiq qərarın qəbul edilməsi.
4. "Bakı Sığorta" ASC və "Respublika İnvest" MMC-nin fəaliyyətinə dair müzakirələrin və müvafiq qərarın qəbul edilməsi.
5. "Bank Respublika" ASC tərəfindən imtiyazlı səhmlərin buraxılması yolu ilə nizamnamə kapitalının artırılmasının təsdiq edilməsi haqqında.
6. Nizamnamə kapitalının artırılması ilə əlaqədar "Bank Respublika" ASC-nin Nizamnaməsinə müvafiq dəyişikliyin təsdiq edilməsi haqqında.
7. "Bank Respublika ASC-nin Mükafatlandırma Siyasətinin təsdiq edilməsi haqqında.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

539-49-20


## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə əzizi

**İBRAHİM HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevə əzizi, görkəmli yazıçı-dramaturq, dövlət xadimi və diplomat, Əməkdar incəsənət xadimi

**HİDAYƏT ORUCOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3778
Sifariş 808

Qiyməti 60 qəpik